QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 248 (5720) **29 dekabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən yeni yolun açılışı olub

## *Prezident İlham Əliyev açılışda iştirak edib*




Səh 2


**Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir**



2

**Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib**



3

**Xalqımız əmin-amanlıq və rifah şəraitində böyük ümidlərlə 2019-cu ilə qədəm qoyur**



4

**Uğurlu islahatlar ili**



7

**Milli Məclisdə “Azərbaycan parlamentarizmi tarixi” kitabının təqdimatı olub**



6

**Sərhədçilər düşmənin təxribatlarının qarşısını almaq üçün daim hazırdırlar**



6

13

**Azərbaycançılıq məfkurəmizdən yaranan amal**




5

**“Sosial problemlərin həlli Prezidentin vətəndaşlara qayğısının ifadəsidir”**



16

**Messidən Ronaldoya cavab: “Mənə dəyişiklik lazım deyil”**



# Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən yeni yolun açılışı olub

## Prezident İlham Əliyev açılışda iştirak edib




Dekabrın 28-də Böyükşor gölünün üzərində inşa edilən və paytaxtın Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verdi.

Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən, paytaxtın nəqliyyat sistemində mühüm əhəmiyyətə malik yeni yolun tikintisi 2017-ci ilin yanvarında və bu ilin mayında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən həyata keçirilib. Uzunluğu 2,7 kilometr olan yolun tikintisi yüksək keyfiyyətlə və sürətlə aparılaraq yekunlaşdırılıb. Yeni yol Böyükşor gölünün iki hissəyə bölünməsi məqsədilə çəkilən 1570 metr uzunluğundakı bəndin üzərindən keçir. Yeni yol dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolboyu 16 yol nişanı quraşdırılıb. Yolun əvvəlində və sonunda uzunluqları 320 və 274 metr olan iki tunel də inşa edilib. Tunellərin hərəkət hissəsinin eni 28 metrdir. Tikinti işləri çərçivəsində yeni yolun giriş və çıxış hissələrində qovşaqlar da tikilib. Yol boyunca müasir işıqlandırma sistemi qurulub, dörd avtobus dayanacağı quraşdırılıb.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır. Sonda xatirə şəkli çəkdirildi.

### Rəsmi xronika

Prezident İlham Əliyev Şahin Məmmədovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şahin Kərim oğlu Məmmədov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Binəqədi rayonunda abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.



# Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, bu il bu münasibətlərin daha da yüksək zirvəyə qalxdığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin dövlət başçıları arasında həm Azərbaycanda, həm Türkiyədə, həm də beynəlxalq tədbirlərdə keçirilən görüşlərin və çoxsaylı təmasların əlaqələrimizin daha da möhkəmlənməsi baxımından xüsusi rol oynadığını bildirdi. Dövlətimizin başçısı bu il, eyni zamanda, bir çox mühüm birgə layihələrin, o cümlədən TANAP və STAR layihələrinin açılış mərasimlərinin olduğunu qeyd edərək, siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə çox gözəl əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev bu il Türkiyə Prezidentinin iştirakı ilə keçirilən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradı dostluq və qardaşlıq münasibətlərimizin parlaq təzahürü kimi dəyərləndirdi. Dövlətimizin başçısı qarşıdan gələn ilin də Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında uğurlu il olacağına əminliyini ifadə etdi və Türkiyənin daxili işlər naziri Süleyman Soylunun Azərbaycana səfərinin əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyini dedi.



Qəbula görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri Süleyman Soylu, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Türkiyə-Azərbaycan əlaqələrinə toxunan Süleyman Soylu qeyd etdi ki, əlaqələrimiz böyük lider, görkəmli dövlət xadimi Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət" prinsipi üzərində qurulub və bu gün uğurla inkişaf edir. O bildirdi ki, Azərbaycan və Türkiyə dövlətləri başçılarının uğurla inkişaf etdirdiyi bu əlaqələr bu gün regiona və dünyaya böyük töhfə verir və qardaşlıq münasibətlərinin bir nümunəsidir. Türkiyəli nazir qeyd etdi ki, başda Dağlıq Qarabağ məsələsi olmaqla Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci isə Türkiyənin sevincidir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib

## *Birinci vitse-prezident Mehriban Əliyeva bayram şənliyində iştirak edib*

**Dekabrın 28-də Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları ərəfəsində uşaqlar üçün ənənəvi şənlik təşkil edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə hər il keçirilən bayram şənliyində uşaq evlərinin sakinləri, internat məktəblərinin şagirdləri, xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələr, eləcə də şəhid ailələrindən olan uşaqlar iştirak edirlər.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva uşaqların bayram şənliyində iştirak etdilər.





Bayram şənliyi ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla görüşündən, gənc nəslə diqqət və qayğısından bəhs edən videoçarxın nümayişi ilə başladı. Artıq ənənəvi xarakter alan şənlikdə hər il olduğu kimi, bu il də uşaqlara səhnələşdirilmiş nağıl və musiqili-əyləncəli proqram təqdim edildi.

Bu proqram əsasında "Buta" sarayında balacalar üçün qurulan dekorasiyalar uşaqların əhval-ruhiyyəsini daha da artırdı. Bər-bəzəkli sarayda rəqslərə qoşulan, mahnılar ifa edən, məharətlərini göstərən uşaqların sevinci hədsiz idi. Çünki Heydər Əliyev Fondunun təşkil etdiyi bayram və bu şənlikdə tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı. Bayram şənliyində uşaqların sevinci, üzlərindəki təbəssüm bu xoş əhval-ruhiyyəni onlara yaşadan Heydər Əliyev Fondunun fəaliyyətinə verilən ən yüksək qiymət idi.

Hər il olduğu kimi bu dəfə də balacalar onların ən böyük himayədarı Mehriban Əliyevanın ətrafına toplaşdılar. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların sevinc və fərəhini bölüşdü, onlarla səmimi söhbət etdi.

Nağıl və musiqili-əyləncəli proqrama uşaq evlərinin sakinləri, yaradıcı uşaqlar və yeniyetmələr - ümumilikdə 500-dək heyət, o cümlədən Azərbaycanın tanınmış estrada ulduzları cəlb olunmuşdu. Balacaların sevimli cizgi filmlərinin qəhrəmanlarını canlandıran personajlar şənlik iştirakçılarında gözəl həyəcan hissləri doğurdu. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng etdi.

Qış nağılını xatırladan sarayda uşaqlar bayram ərəfəsində sevimli qəhrəmanların əhatəsində oldular, onlarla birlikdə şənləndilər.

Azərbaycanın gələcəyi sabahın gəncləri hesab olunan bu günün fidan balalarının əlində olacaq. Ölkəmizdə uşaqlara qayğı Azərbaycan dövlətinin siyasətinin prioritet istiqamətlərindəndir. Yeni nəslin sağlam böyüməsi dövlətin və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqətdə saxlanılır, onlara xüsusi məhəbbət, diqqət və qayğı var. Uşaqların layiqli vətəndaş kimi böyüməsi, cəmiyyətdə sağlam mövqe tutması üçün Azərbaycan dövləti hər cür şərait yaradıb.

Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar xalqımızın övladlarının taleyində əhəmiyyətli rol oynayır. Son illər ərzində sürətli iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycanda yeni tibb ocaqları, təhsil müəssisələri, idman-sağlamlıq kompleksləri istifadəyə verilib. Onların böyük əksəriyyəti bu gün birbaşa uşaqların sərəncamındadır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gördüyü işlər də ölkəmizdə bu istiqamətlərdə formalaşan ənənələrin hələ uzun illər yaşayacağına zəmanət verir. Azərbaycanda uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda uşaqlarla bağlı mühüm layihələr reallaşdırılır. Fondun fəaliyyəti Azərbaycanın gələcəyi hesab edilən uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının səfərbər edilməsinə yönəlib. Bütün bunlar uşaqlarımızın hərtərəfli inkişafı, müasir beynəlxalq standartların tələblərinə cavab verən təhsil, səhiyyə xidmətləri ilə təmin olunması üçün edilir. Fond tərəfindən bu istiqamətdə həyata keçirilən müxtəlif layihələr Azərbaycanın ən qiymətli milli sərvəti olan uşaqların - genofondumuzun qorunub saxlanmasına və daha da inkişafı işinə xidmət edir.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların problemlərinin həllinə xüsusi diqqət yetirir. Cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilməklə, ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Heydər Əliyev Fondunun 14 illik çoxşaxəli fəaliyyəti də məhz bu nəcib dəyərlərə söykənir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bayram şənliyində çıxış edib. Birinci vitse-prezident Mehriban Əliyeva öz çıxışında qeyd edib ki, bu il - 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi həm ölkəmizdə, həm bir sıra xarici dövlətlərdə ən yüksək səviyyədə qeyd edilib:

"Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa oldu. Lakin bu qısa zamanda ölkəmiz, xalqımız üçün çox vacib olan addımlar atıldı, qərarlar qəbul edildi. İlk çoxpartiyalı parlament fəaliyyətə başladı, ölkəmizin bayrağı təsis edildi, qızlar üçün ilk dünyəvi məktəb fəaliyyətə başladı, Azərbaycan Ordusu yaradıldı. Biz bu il, həmçinin Azərbaycan Ordusunun 100 illiyini qeyd etdik. Bu münasibətlə ölkəmizin baş meydanında keçirilən möhtəşəm parad bir daha göstərdi ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır, istənilən vəzifəni icra etməyə qadirdir və hazırdır. Biz bu il, həmçinin Bakının azad olunmasının 100 illiyini birlikdə qeyd etdik.

Ölkəmizin tarixində şərəfli yer tutan bütün bu hadisələrin yüksək səviyyədə keçirilməsi onu göstərir ki, müstəqil Azərbaycan bu gün böyük uğurla inkişaf edir. Azərbaycan bu gün güclü, qüdrətli ölkədir. Azərbaycan dünya xəritəsində öz layiqli yerini tutub. Azərbaycan öz sözünü söyləyən, öz maraqlarını qoruyan dövlətdir. Biz inanırıq ki, siz - bu günün uşaqları, bu günün gəncləri gələcəkdə Azərbaycanın inkişafına, ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə öz töhfənizi verəcəksiniz.

Yola saldığımız 2018-ci ilə nəzər salsaq görərik ki, ölkəmizin inkişafı yüksək sürətlə davam edir. Bu il bir sıra çox vacib layihələr həyata keçirilib, yeni islahatlara start verilib. Dünya Bankının hesabatında Azərbaycan 10 islahatçı dövlət sırasına daxil edilib. Bu il biz həm ölkəmizin, həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin qorunmasında mühüm rol oynayan "Cənub Qaz Dəhlizi" layihəsinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsini qeyd etdik. Bu il, həmçinin növbəti telekommunikasiya peyki "Azerspace-2" orbitə buraxıldı.

Əziz uşaqlar, siz bilməlisiniz ki, Azərbaycan kimi ölkədə yaşamaq xoşbəxtlikdir. Azərbaycan sülhsevər, sabit ölkədir və biz hər zaman öz müstəqilliyimizi, sabitliyimizi və təhlükəsizliyimizi qoruyacağıq. Görülən bütün işlər, atılan addımlar sizin gələcək xoşbəxtliyiniz naminədir. Bizim əsas amalımız gələcəkdə sizi mənəvi və fiziki cəhətdən sağlam, güclü, savadlı, Azərbaycanın layiqli vətəndaşı kimi görməkdir.

Əziz uşaqlar, əziz valideynlər, əziz dostlar. Mən ümidvaram ki, 2018-ci il sizin üçün uğurlu oldu və sizin xatirənizdə xoş anlarla yaşayacaq. Mən ölkəmizin hər bir uşağına, hər bir balacasına öz hədsiz məhəbbətimi çatdırıram. Əziz müəllimlər, sizin hər birinizə öz dərin minnətdarlığımı çatdırıram. Hər il Heydər Əliyev Fonduna dəstək göstərən və "Buta Palace"da bu şənlikdə iştirak edən və bu bayram ab-havasını yaradan bizim istedadlı sənət adamlarına öz dərin minnətdarlığımı bildirirəm."

# Xalqımız əmin-amanlıq və rifah şəraitində böyük ümidlərlə 2019-cu ilə qədəm qoyur



*Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi Əli Əhmədovun yap.org.az-a müsahibəsi*

***- Əli müəllim, 2018-ci il müasir Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri hesab olunan prezident seçkilərinin keçirilməsi ilə yaddaşlarda qaldı. Sizcə, bu seçkilərin nəticələri hansı reallıqları ifadə etdi?***

- 2018-ci il digər sahələrdə olduğu kimi, ictimai-siyasi sahədə də mühüm uğurlar və əlamətdar hadisələrlə zəngin oldu. İlin ən mühüm və əlamətdar hadisələrindən biri isə Yeni Azərbaycan Partiyasının VI Qurultayının keçirilməsi oldu. Təbii ki, xalqımızın arzularının və iradəsinin ifadəçisi olaraq Yeni Azərbaycan Partiyasının Qurultayı Azərbaycanın ictimai-siyasi həyatında olduqca mühüm əhəmiyyətə malik və əlamətdar, hətta deyərdim ki, qəbul etdiyi qərarları ilə tarixi hadisədir. Cəmiyyətin bütün təbəqələrindən olan 730 mindən artıq vətəndaşı öz sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafına öz layiqli töhfəsini verməkdədir. Cəmiyyətin ən dinamik təbəqəsi qismində çıxış edən gənclərin də partiyamıza axınının davamlı xarakter daşıması Yeni Azərbaycan Partiyasının gələcəyinə olan yüksək inamın təzahürüdür.

YAP-ın VI Qurultayı Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını, dövlətçilik ənənələrinin və demokratik təsisatlarının gücləndirilməsini, ölkənin beynəlxalq nüfuzunun və müdafiə qabiliyyətinin ciddi şəkildə möhkəmləndirilməsini, habelə Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq cənab İlham Əliyevin prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə qərar qəbul etdi. Şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının VI Qurultayında partiyamızın Sədri cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi ilə bağlı qəbul edilən qərar, hər şeydən əvvəl, Azərbaycan xalqının əksəriyyətinin dəstəklədiyi və müdafiə etdiyi bir qərar idi. Aprelin 11-də Azərbaycan seçicilərinin böyük əksəriyyətinin səsvermədə iştirak edərək cənab İlham Əliyevin lehinə səs verməsi bu reallığın bariz ifadəsi oldu. Seçki günü Azərbaycan xalqı yüksək fəallıq və əsl vətəndaş mövqeyi sərgilədi, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri seçki məntəqələrinə sözün həqiqi mənasında axın edərək, sərbəst şəkildə öz iradələrini ifadə etdilər. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğularının, seçkilər günü isə beynəlxalq və yerli təşkilatlar tərəfindən təşkil olunmuş “exit-poll”ların rəsmi nəticələr ilə üst-üstə düşməsi seçkilərin xalqımızın iradəsini əks etdirdiyini bir daha sübut etdi. Seçki prosesini izləyən yerli və beynəlxalq müşahidəçilərin rəyi müsbət oldu, belə bir qənaət ifadə olundu ki, Azərbaycan növbəti prezident seçkilərini azad və şəffaf şəkildə keçirməklə demokratiyanın inkişafı yolunda növbəti möhtəşəm uğura imza atdı.

Azərbaycan xalqının 11 aprel prezident seçkilərində bir daha Heydər Əliyev siyasətinə və bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyevi dəstəkləməklə Onun növbəti dəfə möhtəşəm qələbə qazanmasını təmin etməsi səbəbsiz deyildi. Çünki Azərbaycanın bugünkü inkişafı məhz Prezident İlham Əliyevin adı və titanik fəaliyyəti ilə bilavasitə əlaqədardır. Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkəmiz böyük inkişaf mərhələsi keçib, Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmlənib, dövlətimiz güclənib, iqtisadiyyatımız bir neçə dəfə artıb, Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi xeyli dərəcədə güclənib. Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin real nəticələrinə nəzər saldıqda, ölkəmizin əzəmətli inkişaf yolu keçdiyini, müasir müstəqil Azərbaycanın qüdrətinin daha da artdığını görürük. Azərbaycan iqtisadiyyatının 3,2 dəfə, qeyri-neft sektorunun 2,8 dəfə, sənaye istehsalının 2,6 dəfə, kənd təsərrüfatının 1,7 dəfə artması, qeyri-neft ixracının 4,1 dəfə çoxalması, valyuta ehtiyatlarının 1,8 milyard dollardan 46 milyard dollara çatdırılması bu reallığın bariz ifadəsi və təcəssümüdür. Digər tərəfdən, Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycanda böyük quruculuq işləri aparılıb, ölkəmizin siması tanınmaz dərəcədə dəyişib. Ötən illər ərzində insanların rifahının xeyli dərəcədə yaxşılaşması bütövlükdə Azərbaycanın güclənməsi ilə əlaqədardır. Bütövlükdə, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il Azərbaycan tarixinin qürur hissi doğuran səhifələrini təşkil edir. Bu illər ərzində Azərbaycan həyatın bütün sferalarında ciddi şəkildə yeniləşib və müasirləşib, ölkəmizdə bütün sahələr üzrə möhtəşəm və əzəmətli dəyişikliklər baş verib. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, bitkin, sistemli xarakter daşıyaraq əsl mənada intibah kimi müasir həyatımıza və tariximizə daxil olub. Bütün bu reallıqları görən və yüksək qiymətləndirən Azərbaycan vətəndaşları ölkəmizin cənab İlham Əliyevin rəhbərliyi ilə gələcək 7 il ərzində daha böyük inkişafa, Azərbaycandakı sabitliyə, əmin-amanlığa səs verdilər. Bu, Azərbaycan xalqının Heydər Əliyev siyasətinə və Prezident İlham Əliyevin şəxsiyyətinə, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətə yüksək inam və etimadının bariz təzahürü idi. Şübhəsiz Azərbaycan xalqın böyük inam və etimad bəslədiyi Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni, möhtəşəm uğurlar qazanaraq növbəti zirvələri fəth edəcək. Əminliklə söyləmək olar ki, qarşıdakı dövrdə Azərbaycanda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strategiya əsasında iqtisadiyyat daha da güclənəcək, hökumət insanların rifahının daha da yüksəlməsi üçün müvafiq proqramlar işləyib hazırlayaraq müvəffəqiyyətlə icra edəcək, eyni zamanda, ölkəmizin beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənməkdə davam edəcək.

Bütövlükdə, 2018-ci ilin aprelin 11-də ölkəmizdə keçirilmiş prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Liderinin möhtəşəm qələbəsi bütövlükdə xalqımızın qələbəsi oldu. Bu, cənab İlham Əliyevin dövlətimizin inkişafı naminə göstərdiyi xidmətlərə Azərbaycan xalqının verdiyi layiqli qiymət idi.

***- Azərbaycan 2018-ci ildə də müstəqil, prinsipial, praqmatik və çoxvektorlu siyasətini, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqeyini davam etdirdi. Eyni zamanda, ölkəmiz beynəlxalq müstəvidə mühüm nailiyyətlər qazandı. Bu barədə fikirləriniz nədən ibarətdir?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional və praqmatik xarici siyasət nəticəsində 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənib. Hər şeydən əvvəl, Cənubi Qafqaz regionunun lider dövləti olan, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan, yüksək beynəlxalq nüfuza malik olan Azərbaycanın cari ildə dostları və tərəfdaşları ilə münasibətləri uğurla inkişaf edib. Bu il Prezident İlham Əliyevin 16 rəsmi və işgüzar səfərinin həyata keçirilməsi, müxtəlif ölkələrin dövlət və hökumət başçılarının ölkəmizdə rəsmi və işgüzar səfərlərdə olmaları Azərbaycanın xarici siyasət kursunun intensiv və dinamik xarakter daşıdığını göstərir. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması isə 2018-ci ildə əldə edilmiş ən böyük uğurlardan biri hesab olunmalıdır. 2018-ci ildə TANAP qaz kəmərinin istifadəyə verilməsi, Cənub Qaz Dəhlizinin rəsmi açılışının olması isə regional və beynəlxalq əməkdaşlığın, təhlükəsizliyin möhkəmləndirilməsində ölkəmizin aparıcı rolunun artmasının əyani ifadəsi oldu.

Bundan başqa, bu il rəsmi Bakının təşəbbüsü ilə başlanan, mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafına xidmət edən “Bakı prosesi”nin 10 ili tamam oldu. Tolerantlıq nümunəsi olan, dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycanın Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri arasında əməkdaşlıq üçün unikal platforma olan “Bakı Prosesi”ni uğurla davam etdirməsi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.Oktyabrın 25-26-da Bakıda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunda isə bəşəriyyəti narahat edən aktual məsələlərin həlli yollarının müzakirəyə çıxarılması müstəsna önəm kəsb etdi. Bundan başqa, VI Beynəlxalq Humanitar Forum çərçivəsində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən Dayanıqlı İnkişafa dair Bakı Forumu DİM-in həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik oldu.

Azərbaycan 2018-ci ildə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində qətiyyətli - prinsipial mövqeyini, diplomatik müstəvidə çoxşaxəli fəaliyyətini davam etdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prinsipial siyasətin nəticəsidir ki, beynəlxalq ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəkləyir, bu mövqe ardıcıl olaraq daha da güclənməkdədir. Beynəlxalq ictimaiyyət tərəfindən son zamanlar müxtəlif səviyyələrdə səsləndirilən bəyanatlar, qəbul edilmiş sənədlər Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsinin bariz göstəricisidir. Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə Brüsseldə paraflanmış Tərəfdaşlıq Prioritetləri sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstəyin, eləcə də dövlətimizin başçısının iştirak etdiyi NATO-nun Brüssel Zirvə toplantısının yekun bəyanatında ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə dəstəyin və münaqişənin bəhs olunan prinsiplər əsasında həllinə çağırış xarakterli konkret mövqeyin ifadə olunması mühüm əhəmiyyətə malikdir. İşğalçı siyasətini davam etdirən Ermənistanın isə regionda təcrid vəziyyəti getdikcə daha da dərinləşməkdədir. Eyni zamanda, olduqca mürəkkəb vəziyyətlə qarşı-qarşıya qalan işğalçı Ermənistan bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. Şübhəsiz ki, Ermənistanın yeganə çıxış yolu işğal siyasətinə son qoyması və Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmasıdır.

Azərbaycan bundan sonra da Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində öz prinsipial mövqeyini işğal altında olan torpaqlarımızın azad ediləcəyi günə qədər davam etdirəcək. Azərbaycanın bu gün işğal altında olan hər qarış torpağı azad ediləcək. Azərbaycanın bu ədalətli və qəti mövqeyinin arxasında isə onun hərbi qüdrəti dayanır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilmiş əzəmətli hərbi parad, o cümlədən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad, eyni zamanda, Azərbaycan Silahlı Qüvvələri tərəfindən Naxçıvanda 11 min hektara yaxın ərazinin və Şərurun Günnüt kəndinin işğaldan azad edilməsi ordumuzun istənilən vəzifəni icra etməyə qadir olduğunu bir daha nümayiş etdirdi.

***- Əli müəllim, artıq 2018-ci il tarixə qovuşmaqdadır. Yola saldığımız bu il Azərbaycan üçün çox mühüm uğurlar və əlamətdar hadisələrlə yadda qaldı. İlk növbədə, cari ildə ölkəmizin dinamik sosial-iqtisadi inkişafı ilə əlaqədar fikirlərinizi bilmək istərdik. Azərbaycanda 2018-ci ilin sosial-iqtisadi mənzərəsini necə səciyyələndirirsiniz?***

- Müasir müstəqil Azərbaycanın dayanıqlı və dinamik inkişafı Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlıdır. Ötən 15 ilin mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan sürətlə inkişaf edib, bütün sahələrdə parlaq nailiyyətlər qazanıb. 2018-ci il Azərbaycan üçün çox uğurlu və əlamətdar hadisələrlə zəngin oldu.

Ardı Səh. 5

# Xalqımız əmin-amanlıq və rifah şəraitində böyük ümidlərlə 2019-cu ilə qədəm qoyur

**Əvvəli-Səh-4**

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl, səmərəli və məqsədyönlü siyasət nəticəsində siyasi, iqtisadi, sosial, humanitar, mədəniyyət, idman və digər sahələrdə tarixi əhəmiyyətə malik möhtəşəm nailiyyətlər əldə olundu. Bu müddət ərzində ölkəmizdə bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar həyata keçirildi, Azərbaycan iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı davam etdi. Cari ildə bir çox mühüm infrastruktur layihələrin uğurla icra olunması, xüsusilə də nəqliyyat və neft-qaz sektorunda tarixi nailiyyətlərə imza atılması təqdirəlayiq haldır.

Nüfuzlu beynəlxalq reytinq agentlikləri də ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində əldə etdiyi uğurları yüksək qiymətləndirirlər. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, 10 ən islahatçı dövlət siyahısına daxil edilib. Bundan başqa, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı da Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı nailiyyətləri əks etdirir.

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri üzrə vəzifələrin icrası istiqamətində görülən işlər beynəlxalq miqyasda müsbət dəyərləndirilir. Azərbaycan hökuməti bu istiqamətdə öz vəzifələrinə kifayət qədər məsuliyyətlə yanaşır. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Şübhəsiz ki, Azərbaycan vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsində, sosial rifahının yaxşılaşdırılmasında, inkişafın davamlı olmasında mühüm rol oynayan amillərdən biri ölkəmizdə mövcud olan etibarlı təhlükəsizlik və sabitlik mühitidir. 2018-ci ildə beynəlxalq vəziyyətin gərginləşməsinə, ayrı-ayrı regionlarda qanlı toqquşmaların, müharibələrin baş verməsinə baxmayaraq, Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adası kimi tanınır. Ölkəmizdə sabitliyi təmin edən başlıca faktor isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu, eləcə də xalq-iqtidar birliyidir.

Nəticə etibarilə, Azərbaycanda 2018-ci ilin mənzərəsi müsbət xarakterlidir, cari ildə bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılması ölkəmizin qüdrətinin daha da artmasını təmin edib, qarşıda yeni perspektivlər açıb.

- Yeri gəlmişkən, bu bir reallıqdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu kontekstdə ölkəmizdə həyata keçirilən sosial siyasətin mahiyyəti və nəticələri ilə bağlı nə deyə bilərsiniz?

- Ölkəmizdə dövlət siyasətinin çox mühüm tərkib hissəsini sosial siyasət təşkil edir, Azərbaycanda sosial dövlət ideyası uğurla reallaşdırılır. İnsanların sosial rifahının daha da yüksəldilməsi üçün lazım olan tədbirlərin görülməsi, əhalinin gəlirlərinin mütəmadi olaraq artırılması, maaşların, pensiyaların davamlı şəkildə yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər kompleks şəkildə Prezident İlham Əliyevin sosial siyasətinin ayrı-ayrı komponentlərini əks etdirir.

Qayğıya ehtiyacı olan bütün vətəndaşların, o cümlədən şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin, eləcə də qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi də dövlətin diqqət mərkəzindədir. Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı davamlı xarakter daşıyır. Dövlətimizin başçısının bu istiqamətdə müvafiq Fərman və sərəncamları əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Son illərdə bu kateqoriyadan olan minlərlə insan mənzillə və minik avtomobilləri ilə təmin olunublar, eyni zamanda, həmin kateqoriyadan olan insanlara çoxsaylı güzəştlər tətbiq edilir.

Əhalinin məşğulluğunun təmin olunması yönündə də məqsədyönlü işlər görülür, həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyır. 2018-ci il oktabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq olunması haqqında Sərəncamın imzalanması bu baxımdan mühüm addım sayılmalıdır. Son 15 ildə 2 milyona yaxın yeni iş yerinin açılması dövlət başçısının bu sahədə uğurlu siyasətinin əyani göstəricisidir. Hazırda Azərbaycanda işsizlik səviyyəsinin Avropa və MDB məkanında ən aşağı göstəricilərdən biri olması da dediklərimə əyani sübut ola bilər.

Azərbaycanda həyata keçirilən məqsədyönlü sosial siyasətdən bəhs edərkən səhiyyənin inkişafı istiqamətində reallaşdırılan ardıcıl və səmərəli tədbirləri də xüsusi vurğulamaq lazımdır. Ölkəmizdə səhiyyə sektorunun inkişafı ilə bağlı islahatların həyata keçirilməsi, mühüm Dövlət proqramlarının qəbul olunması, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, vətəndaşların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu sahədə dövlət siyasətinin prioritetlərini təşkil edir. Bəhs olunan prioritetlərə və qarşıda duran vəzifələrə müvafiq olaraq həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər mühüm nəticələr verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir.

Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi və səhiyyənin maliyyələşmə sisteminin təkmilləşdirilməsi istiqamətində reallaşdırılan məqsədyönlü tədbirlər səhiyyə sahəsində həyata keçirilən islahatların mühüm tərkib hissəsi kimi qeyd edilməlidir.

Bunlarla yanaşı, Azərbaycanda əhalinin sağlam qida ilə təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. Son illərdə qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində nəzərəçarpan nailiyyətlər əldə olunub. Respublikamızda bir sıra sahələr üzrə daxili tələbatın sırf yerli istehsal hesabına ödənilməsi isə mühüm əhəmiyyətə malikdir. Görülmüş tədbirlərin davamı kimi əhalini təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin etmək, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyini daha da artırmaq qarşıdakı dövr üçün əsas vəzifələrdən biri kimi müəyyənləşdirilib.

Bütövlükdə, Azərbaycan hökuməti əhalinin rifah halının daha da yaxşılaşdırılması, onların hərtərəfli qayğı ilə əhatə olunmaları üçün ardıcıl olaraq məqsədyönlü layihələr, islahat xarakterli tədbirlər həyata keçirməkdədir.

- Əli müəllim, 2018-ci ildə bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılması qarşıdakı dövrün də ölkəmiz üçün uğurlu olacağını deməyə əsas verir. 2019-cu ildən gözləntiləriniz nədən ibarətdir?

- Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələri əhatə edən ardıcıl, məqsədyönlü islahatların aparılması, uğurlu daxili və xarici siyasət kursunun həyata keçirilməsi Azərbaycanın qüdrətinin artmasında ifadə olunur. Dünyaya nümunəvi və mütərəqqi inkişaf modeli təqdim edən Azərbaycan bu gün, sözün əsl mənasında, özünün qızıl əsrini yaşamaqdadır və bu dövr hələ uzun müddət davam edəcək. Bu gün Azərbaycan insanların arzularının reallaşdığı bir məmləkətə çevrilib, həmçinin bu istək və arzuların həyata keçməsi üçün Azərbaycan dövləti və hökuməti lazım olan bütün şəraiti və imkanları təmin edir. Son 15 ilin nailiyyətləri Azərbaycan vətəndaşlarında belə bir inamı qəti surətdə formalaşdırıb ki, Azərbaycan bundan sonra da taleyini Heydər Əliyev siyasəti və bu siyasəti uğurla həyata keçirən İlham Əliyevlə bağlamalıdır. Çünki bu siyasət Azərbaycana möhtəşəm uğurlar qazandırır, sürətli inkişafı, sabitliyi təmin edir. Nə qədər Prezident İlham Əliyev Azərbaycana rəhbərlik edirsə, ölkəmiz bir o qədər inkişaf edəcək, növbəti illərdə daha böyük uğurlar qazanacaq. Bütün sahələrdə qazanılan uğurlarla yanaşı, ölkəmizin qarşısında gələcək hədəflər də dayanır. Azərbaycan iqtisadiyyatının daha da güclənməsi, əhalinin rifah halının daha da yüksəlməsi, Azərbaycanın regionda və beynəlxalq miqyasda mövqelərinin daha da möhkəmləndirilməsi qarşıda dayanan əsas strateji vəzifələr sırasındadır. Bütövlükdə, Azərbaycan qarşıdakı dövrdə də yeni uğurlar - möhtəşəm nailiyyətlər qazanacaq, qarşıya qoyulan bütün hədəflər və məqsədlər reallığa çevriləcək. Bu isə regionun lider dövləti olan Azərbaycanın inkişaf yolunda inamla və qətiyyətlə irəliləməsini təmin edəcək.

## "Sosial problemlərin həlli Prezidentin vətəndaşlara qayğısının ifadəsidir"



***"Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və istiqamətdə ardıcıl tədbirlər keçirilir. Bu yaxınlarda qaçqın və məcburi köçkünlərə üçün nəzərdə tutulan yaşayış kompleksinin açılması, şəhid olmuş hərbi qulluqçuların ailələrinə birdəfəlik yardımın verilməsi, eləcə də aztəminatlı ailələr üçün bayramla əlaqədar nəzərdə tutulan birdəfəlik maliyyə yardımı və digərlərini buna bariz nümunədir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev deyib.***

Onun sözlərinə görə, ölkəmizdə bu istiqamətdə atılan addımların hər bir dövlət başçısının bu kateqoriyadan olan insanlara, bütövlükdə sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara qayğısının əyani nümunəsidir. O bildirib ki, Azərbaycan Prezidenti növbəti dəfə dövlət başçısı seçildikdən sonra ilk fərmanı vətəndaşların sosial müdafiəsi ilə bağlı olub.

Dekabrın 27-də Sumqayıtda qaçqın və məcburi köçkünlər üçün inşa edilən yaşayış binaları və kompleksinin açılışını xüsusi qeyd edən M. Quliyev vurğulayıb ki, Azərbaycan Prezidenti tərəfindən daim qaçqın və məcburi köçkünlərə qayğı və diqqətin nəticəsi olaraq bu kompleksdən 1005 köçkün ailəsi yararlanacaq. Deputat qeyd edib ki, sözügedən yaşayış kompleksində məcburi köçkünlər üçün təkcə yaşayış binası deyil, eləcə də onların digər sosial problemlərinin həlli istiqamətində məktəb, uşaq bağçası və lazımi infrastruktur obyektləri inşa edilib: "Bütün bunlar Prezidentin Azərbaycan vətəndaşlarına, ölkəmizdə bu kateqoriyadan olan insanlara qayğısının ifadəsidir".

## Aztəminatlı ailələrə birdəfəlik yardımların ödənişi artıq təmin olunub




Prezident İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" 2018-ci il 19 dekabr tarixli Sərəncamının icrasına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 manat məbləğində birdəfəlik yardımın ödənilməsini artıq təmin edib. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, birdəfəlik yardım həmin ailələrin bank hesablarına köçürülüb. Bu da onların bayram ərəfəsi maddi təminatlarına bir dəstəkdir.

Qeyd edək ki, Sərəncam ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə birdəfəlik yardım ödənilməsini nəzərdə tutmaqla dövlət başçısının həmin ailələrə növbəti qayğısıdır. Sərəncama əsasən, bu məqsədlə 2018-ci il dövlət büdcəsindən 5 milyon manat ayrılıb.

# Milli Məclisdə “Azərbaycan parlamentarizmi tarixi” kitabının təqdimatı olub






Dekabrın 28-də Milli Məclisdə “Azərbaycan parlamentarizmi tarixi” adlı ikicildlik kitabın təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbiri açan kitabın həmmüəllifi, Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova deyib ki, 2018-ci ili vacib və əhəmiyyətli edən onun 100 illik yubileylərlə zəngin olmasıdır. Prezident İlham Əliyevin 2017-ci il 16 may tarixli Sərəncamına əsasən bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi qeyd olundu. İl ərzində həm ölkəmizdə, həm də xaricdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində çoxsaylı yubiley tədbirləri keçirildi. Bu yüz ilin hər günündə əldə etdiyimiz uğurlar, rastlaşdığımız çətinliklər, həyatımızın ən vacib dövrləri və bu dövrlərdə xalqımızın, dövlətimizin atdığı addımlar, ictimai-siyasi şərait və müqəddəs xəyallarımızın gerçəkliyə çevrilməsi istiqamətindəki səylərimizə qarşı yönəlmiş cəhdlər barədə çoxlu müzakirələr aparıldı, dəyərləndirmələr edildi. Dövlətimiz, xüsusilə Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yubileyinin yüksək səviyyədə qeyd olunması üçün lazımi addımları atıb. Azərbaycan parlamenti də Prezident İlham Əliyevin Cümhuriyyətin 100 illiyinin yüksək səviyyədə qeyd olunmasından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün lazım olan bütün işləri görüb.

“Azərbaycan parlamentarizmi tarixi” kitabının önəmini vurğulayan Bahar Muradova deyib ki, kitabın tədqiqat obyekti Azərbaycan xalqının keçdiyi şərəfli yol, qərarların qəbulu ənənəsi, qədim dövrdə bu ənənələrin yaranmasından tutmuş ötən əsrə qədər keçən dövr, Cümhuriyyətin yaranması, sovet dövrü, həmin dövrdə dəyişən şərtlər çərçivəsində, daha sonra isə 1991-ci ildə ölkəmizin müstəqilliyinin bərpasından sonra Azərbaycan parlamentinin keçdiyi yoldur. “Müəlliflər olaraq məqsədimiz Azərbaycanda tarixən qərarların qəbul edilməsi ənənəsini öyrənmək, parlamentin dövlət idarəçiliyi sistemində tutduğu yeri, oynadığı rolu dəyərləndirmək, eləcə də bu günə qədər bu sahədəki elmi-nəzəri tədqiqatları, mövqeləri özündə əks etdirən ümumiləşmiş tədqiqat əsəri ortaya qoymaq idi. Kitabın birinci cildi qədim dövrdən 1991-ci ilə qədər, ikinci cildi isə 1991-ci ildən 2018-ci ilə qədər olan dövrü əhatə edir. Bu kitab gələcək elmi-tədqiqat əsərlərinin yaradılması üçün mühüm mənbə ola bilər. Kitab bu sahədə əldə olunmuş nailiyyətləri özündə birləşdirən ümumiləşmiş əsərdir”, - deyə Bahar Muradova söyləyib.



Milli Məclisin elm və təhsil komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, deputat, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, deputat, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, professor Hikmət Babaoğlu çıxışlarında vurğulayıblar ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyinin qeyd olunması və 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi haqqında sərəncamları onun dövlətçilik tariximizə, xüsusilə də Cümhuriyyət tarixinə verdiyi yüksək qiymətin ifadəsidir. Eyni zamanda, bu sərəncamlar Cümhuriyyət qurucularının xatirəsinə ehtiramı da dövlət səviyyəsində ifadə edir. Dövlətimizin başçısı İlham Əliyevin imzaladığı hər iki sərəncam ölkəmizdə müstəqillik, milli dövlətçilik təfəkkürünün daha da möhkəmlənməsinə, inkişaf etdirilməsinə xidmət edir. Bu sərəncamlar mühüm siyasi və tarixi əhəmiyyətə malikdir. Həmin sərəncamlara əsasən ölkəmizdə və xaricdə genişmiqyaslı tədbirlər həyata keçirildi. Bu tədbirlərin içərisində Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclası və bu gün təqdimatı olan “Azərbaycan parlamentarizmi tarixi” kitabının işıq üzü görməsini xüsusi qeyd etmək lazımdır.

Bildirilib ki, parlamentarizmin tarixi, Azərbaycanda parlament ənənəsi haqqında ilk dəfədir kitab dərc olunub. “Azərbaycan parlamentarizmi tarixi” kitabı ölkəmizdə mili parlamentarizmin tarixinə və inkişaf yoluna həsr olunan birinci kitab kimi böyük əhəmiyyətə malikdir. Nəşrlərdə Azərbaycan parlamentarizminin tarixi təkcə 100 il bundan əvvəl Cümhuriyyət qurucularının yaratdığı parlamentin tarixi ilə əlaqəli şəkildə göstərilməyib. Müəlliflər, həmçinin ölkəmizdə parlamentarizmin qədim tarixi ənənələrə malik olduğunu göstərmək üçün ilk dəfə olaraq bu istiqamətdə dərin, sistemli tədqiqatlar aparılıb.

Kitabın həmmüəllifi, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı bildirib ki, bu kitab Prezident İlham Əliyevin Cümhuriyyətin 100 illiyi ilə bağlı imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinə bir töhfədir. Azərbaycanda ilk dəfə olaraq parlamentarizm tarixi haqqında kitab nəşr olunub. Bu kitabda göstərilir ki, ölkəmizdə qərarların qəbul edilməsinin ənənələri olub. Nəşrdə parlamentin keçdiyi yol, xalqımızı düşündürən problemlər və onların həlli məsələləri əksini tapıb.

Qeyd edək ki, “Azərbaycan parlamentarizmi tarixi” kitabı Azərbaycan Respublikası Milli Məclisinin sifarişi ilə hazırlanıb. Kitabın elmi məsləhətçisi və redaktoru Milli Məclisin sədri Oqtay Əsədov, müəllifləri AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı, Milli Məclisinin sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Bahar Muradova, AMEA-nın aparici elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Vasif Qafarovdur.



## Sərhədçilər düşmənin təxribatlarının qarşısını almaq üçün daim hazırdırlar



31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirən sərhəd bölmələrində Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbər heyətinin sərhədçilərlə görüşməsi, xidməti və məişət şəraitlərinə baxış keçirilməsi, qarşıdan gələn bayram münasibətilə şəxsi heyətə təbriklərini çatdırması ənənəsi davam etməkdədir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xidmətin rəisi, general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Qazax” sərhəd dəstəsinin Ermənistanla dövlət sərhədində xidməti-döyüş fəaliyyətini həyata keçirən sərhəd döyüş məntəqələrində olub, təmas xəttində döyüş tapşırığını yerinə yetirən hərbi qulluqçularla görüşüb.

Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə xidmət etməkdən qürur duyan və xüsusi hazırlıq keçmiş heyət sırasında olmaları ilə fəxr edən sərhədçi hərbi qulluqçular düşmənin hər hansı təxribatının qarşısını almaq üçün daim hazır olduqlarını bildirib, döyüş ruhunun yüksək olduğunu nümayiş etdiriblər.

DSX-nin rəisi “Qazax” sərhəd dəstəsinin xidməti ərazisindəki əməliyyat şəraiti, həmçinin ərazi müdafiəsinin və sərhəd mühafizəsinin gücləndirilməsi məqsədilə görülən işlər haqqında Sərhəd Qoşunları Komandanının və digər rəhbər vəzifəli şəxslərin məruzələrini dinləyib. Xidmət rəisi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının ən yüksək səviyyədə icra edilməsi, döyüş hazırlığının daha da gücləndirilməsi, şəxsi heyətin döyüş ruhunun və vətənpərvərlik hisslərinin yüksəldilməsi, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin yerli orqanları, Müdafiə Nazirliyinin xidməti ərazidə dislokasiya olunmuş hərbi hissə və birləşmələri ilə qarşılıqlı əlaqələrin daha yüksək səviyyədə təşkili, Qazax və Ağstafa rayonlarında yerli icra hakimiyyəti orqanları və vətəndaşlarla münasibətlərinin genişləndirilməsi istiqamətində göstərişlərini verib.

General-polkovnik Elçin Quliyev Qazax və Ağstafa rayonlarının ərazisində ərazi müdafiəsinin təkmilləşdirilməsi ilə yanaşı, müasir sərhəd mühafizə infrastrukturunun yaradılması, sərhəd komendantlıqlarında və sərhəd döyüş məntəqələrində tikilən yeni xidməti binaların və əsgər kazarmalarının inşa vəziyyəti, məntəqələrdə quraşdırılmış modul tipli binalarda, səhra mətbəxlərində və səhra hamamlarında yaradılmış şəraitlə tanış olub, sərhəd döyüş məntəqələrinə yeni yolların salınması, sənaye işığının və qaz xətlərinin çəkilməsi məqsədilə görülən işlərin gedişini yoxlayıb.

DSX rəisi, general-polkovnik Elçin Quliyev sərhəd döyüş məntəqələrində xidmət-döyüş fəaliyyətinin təşkilində fərqlənmiş hərbi qulluqçuları mükafatlandırıb, şəxsi heyətlə birgə nahar edib. Xidmət rəisi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə sərhədçiləri təbrik edib, çətin və məsuliyyətli, ağır olduğu qədər də şərəfli xidmətlərində uğur və müvəffəqiyyətlər arzulayıb.

# Uğurlu islahatlar ili

*Tərəqqi anlayışı mahiyyət etibarı ilə permanent xarakteri daşıdığı üçün yalnız ardıcıllıq təmin edildiyi halda həqiqi inkişafdan danışa bilərik. Azərbaycan Respublikasının Ulu Öndər Heydər Əliyev tərəfindən başladılan inkişaf modelinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən artıq uzun illərdir uğurla davam etdirilməsi tarixilik baxımından fenomenal bir hadisə, politoloji baxımdan geniş və əhatəli araşdırma predmetidir.*



Siyavuş Novruzov,
Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri,
Yeni Azərbaycan Partiyası İcra katibinin müavini

Bu baxımdan geridə qoyduğumuz 2018-ci il də istisna olmamışdır. Cənab Prezident 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqa müraciətində ötən ilin uğurlarının məzmununu bu şəkildə ifadə edir: "Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür".

Ümumiyyətlə, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində cənab İlham Əliyev Azərbaycanı bugünkü yüksəliş və inkişaf yoluna, tariximizin ən qüdrətli mərhələsinə gətirib çıxara bilib.

Azərbaycan xalqının Prezident İlham Əliyevə dərin məhəbbətinin, sarsılmaz inamının əsasında dövlətimizin başçısının liderlik keyfiyyətləri dayanır. Onu xalqa sevdirən ən mühüm xüsusiyyəti əsl dövlət rəhbərinə xas qətiyyət, atdığı hər bir addımda milli maraqları öndə yaşatmasıdır. Prezident İlham Əliyevin verdiyi hər bir qərar Azərbaycan dövlətinin milli maraqlarına istinad edir. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci ilin 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin hazırlamış, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirmişdir. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsiylə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir.

Bu gün hamımız fəxarət hissi ilə qeyd edirik ki, dünya şöhrətli ictimai-siyasi xadim, ümummilli lider Heydər Əliyevin milli maraqları nəzərə almaqla yürütdüyü siyasəti XXI əsrin başlanğıcında bütün sahələrdə layiqincə davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir. Azərbaycanı Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən cənab İlham Əliyevin yürütdüyü siyasət dövlət başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. Dövlət başçısı ulu öndərin böyük müdrikliklə irəli sürdüyü inkişaf strategiyasını ötən ildə də inamla davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır.

Habelə, ötən ildə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Dövlət başçısının ötən illərdə praqmatizmə və əməli siyasətə söykənən iqtisadi siyasətinin əsas qayəsində məhz insan amili dayanmış, cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. "Hər bir məmur xalqının xidmətçisi olmalıdır" deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir.

"Hər bir azərbaycanlının Prezidenti" kimi xalqın rifahı hər zaman İlham Əliyev sosial siyasətinin ana xətti, qayəsi olmuşdur. Bu baxımdan əlamətdardır ki, Azərbaycanın beynəlxalq hesabatda "Vergilərin ödənişi" göstəricisi üzrə 7 pillə irəliləyərək 28-ci pillədə qərarlaşması da bu sahədə həyata keçirilən uğurlu islahatların nəticəsidir. Yeri gəlmişkən, 2019-cu il yanvarın 1-dən qüvvədə olan Vergi Məcəlləsinə əlavə və dəyişikliklər Azərbaycanda biznes mühitinin sağlamlaşdırılmasına hesablanmışdır. Məsələn, məcəlləyə edilən dəyişikliklə ilk dəfə olaraq vergidən azad olunan əməkhaqqının məbləği 8.000 manata qədər artırılmışdır. Dövlət və neft-qaz sektorunda çalışanlar istisna olmaqla, yalnız qeyri-dövlət sektorunda çalışan 500 mindən çox adam bu vergi güzəştlərindən faydalana biləcək və yeddi il onlar əməkhaqqıdan gəlir vergisi ödəməyəcəklər. 2019-cu ilin büdcəsində gəlir vergisi üzrə daxilolmaların 316 milyon manat azaldılması nəzərdə tutulmuşdur. Bütövlükdə planlı şəkildə dövlət büdcəsinə vergi daxilolmalarında azalma təxminən 400 milyon manata yaxındır. Bu isə o deməkdir ki, həmin vəsait sahibkarların və vətəndaşların sərəncamında qalacaqdır.

Azərbaycanın qarşısında duran ən mürəkkəb problem heç şübhəsiz, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsidir. Lakin ötən il Azərbaycanın Ermənistana qarşı uğurla tətbiq etdiyi "iqtisadi izolyasiya" siyasəti nəticəsində bu ölkədə ciddi sosial-siyasi kataklizmlər baş vermiş, hakimiyyət dəyişikliyi olmuşdur. Paralel olaraq Azərbaycanın silahlı qüvvələrinin döyüş potensialı daha da artmış, ordumuz dünyanın ən güclü orduları sırasında ön cərgələrə çıxmışdır. Lakin bütün bunlara baxmayaraq dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlıları Qarabağ uğrunda səfərbər olmalı, öz potensialını bu istiqamətdə yönəltməlidir. Cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər"

Habelə, başa vurmaqda olduğumuz ilin əlamətdar hadisələrindən biri də daim milli-mənəvi dəyərlərimizə verilən yüksək qiymət çərçivəsində Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində, ölkə miqyasında və diplomatik nümayəndəliklərimizin yer aldığı xarici ölkələrdə geniş və təntənəli şəkildə qeyd edilməsi oldu. Bu barədə dövlət başçımız belə deyir: "2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir".

Yekunda qürur hissi ilə qeyd etmək istərdim ki, inkişafa xidmət edən islahatların reallaşdırılmasında Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, ölkəsinin taleyini cənab İlham Əliyevə etibar etmiş vətəndaşlarımızdan gəlir. Bu gün Azərbaycan xalqı cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın, sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahlara doğru aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı dəstəkləyir. Biz də öz növbəmizdə görkəmli dövlət xadimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevi Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edir, gərgin və şərəfli fəaliyyətində böyük uğurlar arzulayırıq.

## Çikaqo meri Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar bəyannamə imzalayıb



Çikaqo şəhərinin meri Ram Emanuel Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar bəyannamə imzalayıb. AZƏRTAC xəbər verir ki, ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin üzvlərinə və bütün dünya azərbaycanlılarına ünvanlanmış bəyannamədə 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Qafqaz bölgəsinin iqtisadi qüvvəsinə çevrildiyi, regionda sülhün, tolerantlığın və multikulturalizmin bərqərar olmasını təmin etdiyi bildirilir. Sənəddə qeyd edilir ki, dünya üzrə azərbaycanlıların sayı 50 milyon, ABŞ-da isə 400 minə yaxındır. Vurğulanır ki, Azərbaycan ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır, insan haqlarının və bəşəri dəyərlərinin yayılmasına öz töhfəsini verir.

Diqqətə çatdırılır ki, 2015-ci ildə Çikaqo şəhərində təsis olduqdan sonra ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzi mədəniyyətlərin mübadiləsində, Çikaqo və Orta Qərb ştatlarında yaşayan azərbaycanlıların birləşməsində, Çikaqonun Azərbaycan icması isə Azərbaycan-ABŞ əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayıb. Ölkəmizin xaricdə yaşayan azərbaycanlılarla əlaqələrini möhkəmləndirmək məqsədilə ümummilli lider Heydər Əliyev tərəfindən Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi nəzərə alınaraq, 2018-ci il dekabrın 31-i Çikaqo şəhərində Azərbaycanlıların Həmrəylik Günü elan olunub.

# Azərbaycanın yeni keyfiyyətli inkişaf modeli: uğurlar, faktlar, reallıqlar

*Son 15 ildə əldə edilmiş iqtisadi uğurlar Azərbaycanı bölgənin lider dövlətinə çevirib*



**Son 15 ildə ölkəmizdə aparılan ardıcıl iqtisadi islahatlar və düşünülmüş daxili və xarici siyasət nəticəsində Azərbaycan Cənubi Qafqaz regionunun ən nüfuzlu dövlətinə çevrilib. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların keçirdikləri reytinqlərdə, nəinki MDB dövlətlərini, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrini də geridə qoyur. Ən mühüm faktor isə, Azərbaycanın son 15 il ərzində ölkə iqtisadiyyatının neftdən asılılığını aradan qaldırmaqla sürətli inkişaf strategiyasını müəyyənləşdirdi. Bir sözlə, iqtisadiyyatın qeyri-neft sektorunun sürətli inkişafı prosesinə start verildi.**

2004-cü ildən başlayaraq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində iri infrastruktur layihələri reallaşdırıldı. Bu illər ərzində bölgələrin enerji, qaz və su təchizatının yüksək səviyyədə təmin edilməsi, yol infrastrukturunun yenidən qurulması sahəsində inqilabi nəticələrə gətirib çıxaran layihələr həyata keçirildi. Görülən işlərin nəticələri özünü çox gözlətmədi. Bir neçə il ərzində ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 50 faizdən 70 faizə yüksəldi. Bu, bir neft ölkəsinin iqtisadiyyatında baş verən əsl inqilab idi. İndiyə qədər dünyanın heç bir neft ölkəsində buna bənzər dönüş müşahidə olunmamışdı.

### Faktlar, rəqəmlər və nəticələr...

Ölkəmizin keçdiyi bu illər ərzində iqtisadi inkişaf yolunun uğurlu nəticələrini faktlar və rəqəmlərin dili daha aydın görmək olur. Belə ki, son 15 il ərzində ümumi ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, qeyri-neft ixracı isə 4,1 dəfə artmışdır. Bu müddətdə, dövlət büdcəsinin gəlirləri 13,3 dəfə artaraq, 1,5 milyard manatdan 20,1 milyard manata çatıbdır. Valyuta ehtiyatları 1,8 milyard dollardan 42 milyard dollar həcmindədir. Bu da valyuta ehtiyatlarının 23 dəfə artması deməkdir. Əgər 2004-cü ilə qədər ölkəmizdə 3900 meqavat gücündə olan 9 elektrik stansiyası vardısa, indi yeni və müasir, generasiya gücü 2500 meqavat olan 30 elektrik stansiyası tikilib istifadəyə verilibdir. Eyni uğurlar regionların qazlaşdırılması, su təchizatı və digər başqa sahələrdə də əldə olunub. Bütün bu deyilənlərlə yanaşı, kənd təsərrüfatının inkişafı üçün də böyük meliorativ tədbirlər görülüb - Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay kimi dörd nəhəng su anbarı tikilərək istifadəyə verilib ki, nəticədə, 100 min hektardan çox suvarılmayan torpaq sahəsi istifadəyə yararlı vəziyyətə gətirilib. Son 15 il ərzində ölkəmizdə yüz min kilometrlərlə yol çəkilib, Azərbaycanda yeddi aeroport tikilib istifadəyə verilib ki, onlardan da altısı beynəlxalq aeroport statusuna malikdir.

Son 15 il ərzində ölkə iqtisadiyyatının belə sürətli inkişafı dövlətimizin maliyyə imkanlarının kifayət qədər genişlənməsinə, bu isə, öz növbəsində, sosial məsələlərin yüksək səviyyədə həll edilməsinə imkan yaratdı. Belə ki, son 15 ildə əmək haqları 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artıb, işsizliyin səviyyəsi 5 faizə, yoxsulluğun səviyyəsi isə 5,4 faizə enib.

### Azərbaycanın inkişaf istiqamətləri: kənd təsərrüfatı, sənaye və turizm

Kənd təsərrüfatı ölkənin sosial-iqtisadi və siyasi problemlərinin həllində, xüsusən də, regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. Məhz dünya enerji bazarında yaşanan proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsiri nəticəsində, iqtisadiyyatın digər sektorlarında işini itirən insanların bir hissəsinin yenidən kənd təsərrüfatına üz tutmaları da deyilənlərin bariz nümunəsidir. Hazırda respublikamızda kənd təsərrüfatının əməktutumlu sahələrinin inkişaf etdirilməsi qısa müddətdə, bu sektorda daha çox insana iş imkanı verir.

Azərbaycanda kənd təsərrüfatının inkişafı 2019-cu ildə də prioritet olacaq. Ötən il ölkədə kənd təsərrüfatı 4,1 faiz artıb. Pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik və sitrusçuluq sahələrində böyük inkişaf qeydə alınıb. 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min, 2015-ci ildə isə 35 min ton pambıq yığılıb. 2015-ci ildə 200 kq, 2016-cı ildə 70 ton, 2017-ci ildə 245 ton barama tədarük edilib. Həmçinin ötən il 18 min hektarda fındıq bağları salınıb. Fındıq bağlarının sahəsi 55 min hektara çatıb və dövlət başçısının da qeyd etdiyi kimi, hədəf 80 min hektara çatdırmaqdır. Bundan başqa, keçən il 140 milyon dollar dəyərində pomidor ixrac edilib. Tütünçülükdə də xeyli irəliləyiş var. 2016-cı ildə 3500 ton, 2017-ci ildə isə 5200 ton tütün tədarük olunub. Prezident İlham Əliyev bildirib ki, kənd təsərrüfatı dövlətin dəstəyi olmadan inkişaf edə bilməz: “Bunu hamı bilməlidir. Əlbəttə ki, rentabellilik olmalıdır. Bəzi sahələr rentabelli sahələrdir, bəzi sahələr subsidiya hesabına yaşamalıdır. Bu, inkişaf etmiş ölkələrdə də belədir. Orada da subsidiyalar var, orada da dövlət fermerləri dəstəkləyir ki, ərzaq təhlükəsizliyi təmin edilsin, iş yerləri yaradılsın. Biz də bu yolla gedirik. Ona görə əgər hansısa kənd təsərrüfatı sahəsində istehsal o qədər də rentabelli deyilsə, bu, böyük faciə deyil, bundan faciə düzəltmək lazım deyil. Dövlət ilkin mərhələdə öz dəstəyini göstərir, bundan sonra hər şey yoluna düşəcək. Necə ki, biz indi kənd təsərrüfatının istehsalında bu artımı görürük”.

Azərbaycanın təşəbbüskarı olduğu mühüm enerji layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub Nəqliyyat Dəhlizi kimi iri layihələr də ölkədə qeyri-neft sektorunun inkişafına ciddi təkan verəcək.

Göründüyü kimi, heç şübhəsiz ki, göstərilən faktlar onu deməyə əsas verir ki, 2019-ci il də Azərbaycanda kənd təsərrüfatının və sənayenin inkişafı üçün uğurlu il olacaq.

Bütün bu deyilənlərlə yanaşı, ölkəmizdə qeyri-neft sektorunda inkişafına xüsusi diqqət ayrılan sahələrdən biri turizmdir. Son illər həyata keçirilən islahatlar nəticəsində Azərbaycan nəinki MDB ölkələri arasında, hətta avropalı turistlər üçün də ən cəlbedici ölkəyə çevrilib. Bakı ilə yanaşı, regionlarda otellərin və istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına geniş imkanlar yaradıb. Turizmin inkişafı ilə bağlı görülən tədbirlərin nəticəsi olaraq, bu gün Azərbaycan turizm ölkəsi kimi öndə gedir. Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin fəaliyyəti gücləndirildi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi tikildi. Bakı-Tbilisi-Qars dəmir yolu istismara verildi.

### Uğurlar beynəlxalq təşkilatların diqqət mərkəzindədir

Bütün bu uğurlar özünü beynəlxalq təşkilatların Azərbaycanla bağlı rəylərində də göstərir. “Doing Business” hesabatına əsasən, Azərbaycan ötən il 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun “Qlobal Rəqabətədavamlılıq” hesabatında isə 35-ci pillədə qərarlaşıb. Dövlətimizin başçısı qeyd edib: “Ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlmişdir. Bu, çox müsbət haldır. Bunun səbəbləri var, - əlbəttə, mən bu barədə dəfələrlə danışmışam, - həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, müasir infrastruktur, tarixi abidələrimiz və turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, eyni zamanda, beynəlxalq tədbirlər, beynəlxalq yarışlar turistləri ölkəmizə cəlb edir. Sevindirici hal ondan ibarətdir ki, keçən il turistlər bank kartları ilə 70 faiz çox pul xərcləmişlər. Turistlərin sayı cəmi 20 faiz artmışdır, amma xərclənən pul 70 faiz artmışdır. Bu da çox müsbət haldır. Turizm də ixracın bir növüdür, çünki turizm ölkəyə valyuta gətirir”.

Bir sözlə, ölkəmizdə makroiqtisadi sabitlik, inflyasiyanın, işsizlik və yoxsulluğun aşağı səviyyədə olması, iqtisadi sahənin əsas göstəricilərinin müsbət olması Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin nəticəsidir və 2019-cu ilin də Azərbaycan üçün uğurlu olacağını deməyə əsas verir.

**RƏFİQƏ KAMALQIZI**

# Milli Məclisin 2018-ci ildə son iclası keçirilib

***Dünən Milli Məclisin 2018-ci il payız sessiyasında son iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. İclasda 52 məsələyə baxılıb. Əvvəlcə deputatlar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin vəzifədən azad edilmələri haqqında məsələni təsdiq ediblər.***

Sonra "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin Qərarında dəyişiklik qəbul edilib.

"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli Qanunun tətbiqi ilə əlaqədar olaraq "Atmosfer havasının mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Yerin təki haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "İcra haqqında", "İnzibati icraat haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Notariat haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Auditor xidməti haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Elektron ticarət haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Haqsız rəqabət haqqında", "Xarici investisiyanın qorunması haqqında", "İcarə haqqında", "İcbari sığortalar haqqında", "İxrac nəzarəti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Kommersiya sirri haqqında", "Qrant haqqında", "Lisenziyalar və icazələr haqqında", "Müflisləşmə və iflas haqqında", "Mühasibat uçotu haqqında" və "Nağdsız hesablaşmalar haqqında", "Patent haqqında", "Reklam haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Texniki təhlükəsizlik haqqında", "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Əmanətlərin tam sığortalanması haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Poçt haqqında", "Kredit ittifaqları haqqında", "Kredit büroları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lotereyalar haqqında", "İpoteka haqqında", "Sığorta fəaliyyəti haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Məşğulluq haqqında", "Sosial sığorta haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Tibbi sığorta haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" qanunlarda və Su, İnzibati Xətalar, İnzibati Prosessual, Miqrasiya, Mülki, Mülki Prosessual, Şəhərsalma və Tikinti, Gömrük və Vergi məcəllələrində dəyişik edilir. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.



Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, qanun layihəsi Mülki Məcəllənin müddəalarının nəzərə alınması və qanunun tətbiqi təcrübəsində yarana biləcək problemlərin aradan qaldırılması məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq təsdiq olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd edilib ki, tramadol hidroxlorid ölkə ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik maddələr siyahısına daxildir. Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahısına daxil edilmiş bu maddə yüngül və güclü, kəskin və xroniki ağrıların qarşısının alınması üçün istifadə edilir. Dəyişikliyin əsas məqsədi narkomaniyaya qarşı mübarizə ilə bağlı suiistifadə hallarını aradan qaldırmaqdan, güclü təsir edən maddələrin dövriyyəsinə nəzarəti gücləndirməkdən ibarətdir. Sonra qanun layihəsi səsvermə yolu ilə təsdiqlənib.

Əli Hüseynli "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini şərh edib. Bildirilib ki, dəyişikliyə əsasən Qanunun 2.2-ci maddəsində "6 il" sözləri "7 il" sözləri ilə əvəzlənir.

Sənəd səsə qoyularaq qəbul edilib. "Azərbaycan Respublikası əhalisinin dövlət reyestri haqqında" Qanunda edilməsi nəzərdə tutulan dəyişiklikləri şərh edən Əli Hüseynli deyib ki, qanun layihəsinin məqsədi Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri dövlət informasiya ehtiyatının tamlığının daha da gücləndirilməsi baxımından həmin sistemdə Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbi və vətəndaşlığı olmayan şəxslər barədə məlumatların da əks olunmasından ibarətdir. Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Əli Hüseynli "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini də təqdim edib. Bildirib ki, təklif olunan dəyişikliyin məqsədi müəlliflik və əlaqəli hüquqların nüsxələrinin qeyri-qanunu hazırlanmasının və yayılmasının qarşısının alınması sahəsində və nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanaması, istifadəsi və satışının qarşısının alınması sahəsində nəzarət müvafiq icra hakimiyyəti orqanlarının yaratdığı orqanlar (qurumlar) tərəfindən həyata keçirilməsindən ibarətdir. Sənəd səsvermə yolu ilə qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd edilib ki, "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edimləsi barədə 2018-ci il 29 iyun tarixli Qanunun icrası məqsədi ilə hazırlanıb. Bu qanun layihəsi də deputatlar tərəfindən dəstəklənib.

Ziyad Səmədzadə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini şərh edərək deyib ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilə yanvarın 1-dək dayandırılıb. Təklif olunan dəyişikliyə əsasən həmin istisnaya gömrük auditi də əlavə olunur. Bunla da səlahiyyətli qurumlar xarici ticarət dövriyyəsində şəffaflığın təmin edilməsi, dövlət büdcəsinə ödənilməsi vergi və gömrük rüsumlarının tam təmin edilməsi məqsədilə gömrük auditini maneəsiz həyata keçirə biləcəklər. Sənəd səsə qoyularaq qəbul edilib.

Deputatlar Gömrük, İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələrini də nəzərdən keçiriblər. Hər iki sənəd səsvermə yolu ilə təsdiqlənib.

Ziyad Səmədzadə "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, təklif olunan dəyişiklik satınalmalar sahəsində şəffaflığın təmini, müasir informasiya texnologiyalarından istifadə edilməsi məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

"Dövlət rüsumu haqqında" Qanunda nəzərdə tutulan dəyişiklikləri şərh edən Ziyad Səmədzadə bildirib ki, sənəd mobil cihazların qeydiyyatına görə ödənilən dövlət rüsumunun 30 faizini müvafiq nazirliyin mobil cihazların qeydiyyatı sisteminin saxlanılmasına, işçilərinin sosial müdafiəsinin və maddi təminatının yaxşılaşdırılmasına yönəldilməsini nəzərdə tutur. Sənəd səsvermə yolu ilə təsdiqlənib.

İclasda deputatlar "Yol hərəkəti haqqında", "Məhkəmələr və hakimlər haqqında", "İpoteka haqqında", "İcra haqqında", "Tibbi sığorta haqqında", "İcbari sığortalar haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Müflisləşmə və iflas haqqında", "İnzibati icraat haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda və Mülki, Mülki Prosessual, Əmək, Şəhərsalma və Tikinti məcəllələrinə dəyişiklik edilməsi haqqında qanun layihələrini müzakirə ediblər. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul olunub.

Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" qanunlarda, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nda və Mülki Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, qanun layihəsi "Cinayət yolu ilə əldə edilmiş pul vəraitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Sənəd səsvermə yolu ilə qəlub edilib.

İclasda Milli Məclisin sədrinin müavini Bahar Muradova "Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti"nin mətnini oxuyub. Müraciət təsdiq edilib. İclasın sonunda Milli Məclisin sədri Oqtay Əsədov 2018-ci il payız sessiyasının sona çatması ilə əlaqədar çıxış edərək deyib ki, bu ildə parlament səmərəli fəaliyyət göstərib. Parlamentdə 31 iclas keçirilib, 463 qanun qəbul edilib. Yəni Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətləri tam yerinə yetirilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin parlament səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görülüb. Bu il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından çox məsuldar olub. Nümayəndə heyətlərimiz beynəlxalq təşkilatların fəaliyyətində dərindən və çox yüksək səviyyədə iştirak ediblər. İl ərzində 45 ölkəyə 135-dən çox səfər həyata keçirilib. Deputatlarımız Türkiyədə keçirilən prezident və parlament seçkilərini, Rusiyada, Gürcüstanda və Monteneqroda prezident, Latviyada keçirilən parlament seçkilərində fəal iştirak ediblər.

Bu il 85 xarici dövlətin və 27 beynəlxalq təşkilatın 160-dan çox nümayəndə heyəti, ümumiyyətlə, 2050 deputat və əcnəbi vətəndaş Milli Məclisdə olub.

Beynəlxalq təşkilatların xətti ilə 9 tədbir keçirilib. Əlbəttə, ən möhtəşəm tədbirimiz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir idi. Bu tədbirdə dünyanın 44 ölkəsindən nümayəndələr iştirak edirdi. Siz hamınız bu tədbirin iştirakçısı oldunuz və bunun nə qədər təntənəli səviyyədə həyata keçirildiyini gördünüz. Eləcə də bu yaxınlarda Milli Məclisdə Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı keçirildi. Bu iclasda da dünyanın 44 ölkəsinin 180 nəfər nümayəndəsi iştirak edib. Milli Məclisin plenar iclas zalında keçirilən həmin konfransın gənc iştirakçıları Azərbaycan haqqında çox yüksək təəssüratlarla vətənlərinə geri döndülər.

Hesab edirəm ki, biz 2018-ci ildə Milli Məclisin iclaslarını çox uğurla başa vurduq. Bayramlar münasibətilə bütün deputat həmkarlarımı ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, ailə xoşbəxtliyi və gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Spiker Milli Məclisin payız sessiyasını bağlı elan edib. Dövlət himni səsləndirildikdən sonra Milli Məclisin payız sessiyası öz işini başa çatdırıb.

***Rəfiqə Kamalqızı***

# Sosial siyasət dövlət siyasətinin ən zəruri sahələrindəndir

*Tahir Süleymanov: "Reallaşdırılan təşəbbüslər Prezident İlham Əliyevin insan amili üzərində qurduğu sosial siyasətinin uğurlu nəticəsidir"*



"Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir". Bu fikirləri "SƏS" qəzetinə millət vəkili Tahir Süleymanov dövlət başçısının apardığı uğurlu sosial siyasəti ilə bağlı münasibətini açıqlayarkən deyib. Onun sözlərinə görə, söz yox ki, bu istiqamətdə də son illər mühüm və ardıcıl addımlar atılmaqdadır: "Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq. Demək olar ki, hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması, onların mənzillərlə təmin edilməsi də buna olan bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir".

Tahir Süleymanov onu da bildirib ki, bu proses 15 il əvvəldən start götürsə də, artıq ötən müddət ərzində, demək olar ki, bütün sahələr üzrə reallaşdırılıb: "Belə ki, bundan sonra ölkədə aztəminatlı ailələrlə yanaşı, gənc ailələr də güzəştli şərtlərlə mənzillərə sahib olmaqdadırlar. O cümlədən, media işçilərinə, qaçqın və məcburi köçkünlərə də mənzillərin verilməsi prosesi, bu siyasətin tərkib hissəsi olaraq, yüksək dəyərləndirilir. Təsadüfi deyil ki, ölkə rəhbəri İlham Əliyev Cənabları tərəfindən irəli sürülən, həyata keçirilən bu kimi təşəbbüslər Onun insan amili üzərində qurduğu sosial siyasətinin bir parçası kimi xarakterizə edilir və dövlətin vətəndaşa diqqət və qayğısı kimi səciyyələndirilir.

Ümumiyyətlə, inkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə böyük təsirini göstərməkdədir. Həyata keçirilmiş və yaxın gələcəkdə yerinə yetiriləcək tədbirlər, nəhəng layihələri respublikada əhalinin sosial vəziyyətinin getdikcə daha da yaxşılaşması üçün əsaslı zəmin yaradır".

"İnsana qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin, Cənab Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir", deyə qeyd edən millət vəkili hesab edir ki, Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir: "Eləcə də, iqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər ölkədə iqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini gücləndirmək üçün möhkəm zəmin yaradıb. Bu, bir daha təsdiq edir ki, Azərbaycanda sosial dövlət quruculuğu modeli uğurla həyata keçirilməklə yanaşı, həm də digər ölkələrə göstərilən örnəkdir. Dövlət başçımız xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan yüksək səviyyədə istifadə edir və bütövlükdə, son illər ərzində, çox ciddi sosial tədbirlərin reallaşdırılması da buna bariz sübutdur".

T.Süleymanov bildirib ki, sosial siyasətin uğurlu reallaşması üçün, ilk növbədə, güclü iqtisadiyyata malik olmaq lazımdır və bu baxımdan, Azərbaycanın keçən dövr ərzində böyük inkişaf yolu keçməsi, ilk növbədə, həyata keçirilən düzgün iqtisadi siyasətlə əlaqədardır: "Başqa sözlə desək, Azərbaycanın sürətli inkişafı və əldə edilmiş nailiyyətlər Cənab İlham Əliyevin liderliyi ilə həyata keçirilən siyasi və iqtisadi kursun məntiqi nəticəsidir. Bu siyasət, müasir dünya iqtisadiyyatının tələblərinə müvafiq olmaqla, ölkəmizin tərəqqisini təmin edir. Makroiqtisadi sabitliyin qorunubsaxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın şaxələndirilməsi, bir sözlə, bütün sahələrdə davamlı inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. Ölkənin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Xüsusilə, Azərbaycan zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib".

**Rəfiqə KAMALQIZI**

# 2019-cu ildə Azərbaycanda "ASAN xidmət" mərkəzlərinin sayı 20-yə çatdırılacaq




***İnnovativ texnologiyalardan istifadə imkanları ilə fərqlənən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir. Dövlət proqramları, aparılan islahatlar, həyata keçirilən layihələrin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.***

Vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə, həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılıb. Bu mərkəzlər bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyublar. Bir neçə il ərzində "ASAN xidmət" mərkəzlərinə 25 milyondan çox müraciət edilib. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir.

Altı il bundan əvvəl - 29 dekabr 2012-ci ildə Bakıda, pilot layihə olaraq, ilk "ASAN xidmət" Mərkəzinin açılışı olub. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirirməklə, 15 yanvar tarixində fəaliyyətə başlayıb. 2013-ci ildə isə Sumqayıt "ASAN xidmət" Mərkəzinin açılışı olub. Bundan bir neçə həftə sonra Bakıda ikinci "ASAN xidmət" mərkəzinin açılışı olub. Daha sonra Gəncədə, Sabirabada, Bərdədə, Masallıda, Qəbələdə, Mingəçevirdə, İmişlidə və digər məkanlarda "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. 2019-cu ildə Azərbaycanda "ASAN xidmət" mərkəzlərinin sayı 20-yə çatdırılacaq.

Bu günlərdə isə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tovuz rayonunda "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Tovuz rayonunda "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə dövlət büdcəsindən 5 milyon manat Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb. Hal-hazırda ölkəmizdə 15 mərkəz fəaliyyət göstərir və onlardan 5-i Bakıda, 10-u isə Azərbaycanın bölgələrindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Suraxanıda aztəminatlı ailələrindən olan uşaqlara bayram sovqatı paylanılıb



Dünən YAP Suraxanı rayon təşkilatının təşəbbüsü ilə "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni İl bayramı" münasibəti ilə rayon təşkilatının idarə heyətinin üzvləri aztəminatlı ailələrin, eyni zamanda, evdə təhsil alan fiziki qüsurlu uşaqların ünvanlarda qonaq olub, onları bayram sovqatları ilə sevindiriblər.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, rayon gənclər birliyinin sədri Aydın Əhmədov, rayon qadınlar şurasının sədri Zəkiyyə Musayeva və YAP Suraxanı rayon təşkilatının aparat işçiləri bayram münasibətilə aztəminatlı ailələrdən olan uşaqları təbrik edib, onlara cansağlığı və uzun ömür arzulayıblar.

Bu, bir faktdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən sosial siyasətin əhalinin sosial müdafiəsinə, xüsusilə də, aztəminatlı ailələrin həyat səviyyəsinin yüksəldilməsinə geniş imkanlar yaradıb. Əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ünvanlı sosial yardım proqramlarının məqsədyönlü tətbiqi nəticəsində ölkəmizdə yoxsulluq səviyyəsinin azaldılmasına müsbət təsir göstərib.

Bayram sovqatı alan ailələr uşaqlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına və rayon rəhbərliyinə dərin təşəkkürlərini bildiriblər.

Onu da qeyd edək ki, bayram ərəfəsində keçirilən tədbirlərin davamı olaraq dünən, həmçinin, neftçi Qurban Abbasov adına Mədəniyyət Sarayında Suraxanı rayon İcra Hakimiyyəti və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə bayram konserti də keçirilib.

**Zümrüd BAYRAMOVA**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI DAYANIQLI İQTİSADİYYATA MALİKDİR



İnkişaf və tərəqqinin dəyişməz ünvanı kimi keçən illərin güclü sosial-iqtisadi potensialını formalaşdıran Naxçıvan Muxtar Respublikası makroiqtisadi gücünü daha da artırmaqdadır. Təbii ki, ölkənin makroiqtisadi hədəf və prioritetlərinə birbaşa xidmət edən bu potensial muxtar respublikanın müasir müstəqillik illərində qürurverici inkişaf tarixini təşkil etməkdədir. Burada qətiyyətli iqtisadi siyasətin davam etdirilməsi, məqsədyönlülüyün üstün tutulması iqtisadiyyatın sahə strukturunun daha mütərəqqi əsaslarla təşkilatlanmasına imkanlar açmışdır. Səmərəli ideya və təşəbbüslər fonunda islahatların davam etdirilməsi və bununla yanaşı, iqtisadiyyatın sosiallaşma səviyyəsinin yüksəldilməsi artan potensialın dinamikliyinə güclü təminat vermişdir. Bu gün tam məsuliyyətlə qeyd edə bilərik ki, Naxçıvan Muxtar Respublikası əhalisinin maraq və mənafelərinin dolğun ifadə oluna bildiyi iqtisadiyyat formalaşdırmışdır, bu isə ölkənin milli-iqtisadi maraqlarının ifadə olunması ilə yanaşı, eyni zamanda, müasir sosial və iqtisadi tələbləri ilə yeni çağırışlar edən dünya iqtisadiyyatına inteqrasiyanın çox mühüm hərəkətverici amilinə çevrilmişdir.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələri üzrə düzgün və səmərəli tənzimlənmə tədbirlərinin həyata keçirilməsi özünü iqtisadi artım dinamikasında göstərməkdədir. Qeyd etmək lazımdır ki, bu sahədə iqtisadi-istehsal münasibətlərinin davamlı inkişafı, regional səmərəliliyin daha da artırılmasındakı çeviklik, həmçinin, iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi sahəsindəki tədbirlər qazanılan nailiyyətlərin davamlılığına güclü təminat vermişdir. Məhz bu və ya digər amillərin təsiri nəticəsində, muxtar respublika 2018-ci ilin yanvar-noyabr aylarında yüksək dinamik artım xəttinə sadiq qalmışdır. Məhz bu, özünü cari ilin ötən on bir ayının yüksək sosial-iqtisadi mənzərəsi olaraq göstərdi. Keyfiyyətcə yeni mərhələnin əsaslarının müəyyən edildiyi bu dövrdə əldə edilən hər bir nailiyyət qarşıdakı dövrlər üzrə güclü bazaya çevrilməkdədir. Qeyd edək ki, ötən dövrdə muxtar respublikada əsas makroiqtisadi göstərici olan ÜDM-in həcmi 2 milyard 421 milyon 714 min 800 manat təşkil etmişdir ki, bu da milli iqtisadi inkişafın mühüm göstəricisinə çevrilmişdir. Bu, ölkənin daha da qətiyyətlə reallaşan hədəfləri fonunda böyük strateji əhəmiyyət daşıyan göstəricidir. Çünki burada iqtisadi islahatlar və sosial dayanıqlılıq məqsədlərinin çox gerçək nəticələri özünü göstərməkdədir. Nəticə etibarı ilə iqtisadiyyatın sosiallaşması əhalinin maraq və mənafelərinin ifadə olunduğu təkmil bir potensialın mövcudluğuna güclü zəmin yaratmışdır.

### Müxtəlif illərin on bir ayı üzrə Naxçıvan Muxtar Respublikasında ÜDM-in həcmi (min manat)

Göründüyü kimi, 2014-2018-ci illərin müvafiq dövrləri üzrə iqtisadi fəaliyyət mühiti daha da səmərəli təşkil edilmiş və bunun nəticəsində, əsas makroiqtisadi göstəricinin istehsal həcmləri arasındakı artım 1,2 dəfə təşkil etmişdir. İqtisadi gücün artması muxtar respublikada əhalinin sosial müdafiəsinin daha da güclənməsini və alıcılıq qabiliyyətliliyinin yüksəldilməsini də təmin etmişdir. Məhz bu, cari ilin ötən dövründə hər bir nəfərə düşən ümumi daxili məhsulun həcminin 5330 manata çatması üçün əlverişli zəmin yaratmışdır. Digər tərəfdən, bəhs edilən dövrlərdə bu sahə üzrə dinamik artımın təşəkkülü fikirlərimizi təsdiq etməkdədir. Bütün bunlar həm də ölkədə və onun regionlarında, xüsusən də, Naxçıvan Muxtar Respublikasında səmərəli icra olunan regional inkişaf proqramlarının yüksək ideya və təşəbbüslərin məhsulu olduğunu göstərməkdədir. Aşağıdakı şəklin məlumatları bunu göstərir:

### Müxtəlif illərin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasında hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi (manat)

Azərbaycan Respublikasında milli iqtisadi quruculuq proseslərinin qətiyyətlə davam etdirilməsi, bir tərəfdən qeyri-neft sektorunun davamlı inkişafını stimullaşdırırsa, digər tərəfdən, hədəf və prioritetlərə doğru əldə edilən uğurların prespektivliyini göstərməkdədir. Bütün hallarda isə, bu, iqtisadiyyatın çoxşaxəliliyini artıran mütərəqqi amillərdir. Bəhs edilən məsələlər Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişafında özünü göstərir. İnfrastruktur quruculuğunun makroiqtisadi məhsuldarlığın artırılmasındakı rolu, regionların istehsal göstəricilərinin artırılması, əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi, məşğulluğun stimullaşdırılması və digər amillərin səmərəli təşkili muxtar respublikada çox güclü potensial formalaşdırmışdır. Həmin nailiyyətlər, bütün sahələr kimi, muxtar respublikanın nəqliyyat sektorunun perspektivlərini daha da artırmışdır. Artıq bütün şəhər, rayon, qəsəbə və kəndlərin müasir standartlara uyğun nəqliyyat infrastrukturu yaradılmış, bu isə, özünü nəqliyyat sektorunda yükdaşımaların həcmindəki artım dinamikası ilə ifadə etməkdədir. Qeyd edək ki, 2010-cu ildə uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək, 2012-ci ildə uzunluğu 34 kilometr olan Naxçıvan-Culfa və 2014-cü ildə uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yollarının istifadəyə verilməsi və hazırda Culfa-Ordubad avtomobil yolunun tikintisinin davam etdirilməsi sözügedən sahə üzrə yeni inkişaf səhifələrinin açılmasına yol açmışdır.

Şəklin məlumatlarından da, görünür ki, güclü infrastruktur quruculuğu muxtar respublikada iqtisadiyyatın sahə strukturu üzrə yüksək perspektivliyə malik dinamik inkişafı təmin etmişdir. Cari ilin yanvar-noyabr aylarında nəqliyyat sektorunda yükdaşınması 2014-cü ilin eyni dövrünün müvafiq göstəricisi ilə müqayisədə 1,1 dəfə artmışdır. Bununla yanaşı, muxtar respublikada nəqliyyat infrastrukturunun inkişafı, həmçinin, dəmiryolu şəbəkəsinin əhatəsinin genişlənməsinə imkanlar açmışdır. Qeyd edək ki, cari ilin təkcə noyabr ayında muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 8 min 520 ton müxtəlif təyinatlı yük, Ordubad-Şərur və Şərur-Culfa istiqamətlərində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 14 min 991 sərnişin daşınmışdır.

İqtisadi sahələrdə çevikliyin göstərilməsi, proseslərin düzgün təşkili və idarə olunması, istehsal-istehlak münasibətlərinin və bu sahədəki fasiləsizliyin təmin edilməsi informasiya və rabitə xidmətlərinin (o cümlədən, mobil rabitə) davamlılığını göstərməkdədir. Təbii ki, bu, məhsul və zaman itkisinin qarşısının alınmasında mühüm göstərici olmaqla, eyni zamanda, əhalinin rifah göstəricilərinin mühüm tərkib hissəsi kimi ifadə oluna bilər.

2014-2018-ci illərin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasında informasiya və rabitə xidmətləri (o cümlədən, mobil rabitə) haqqında məlumat (min manat)

### Bütün bunlar göstərir ki, muxtar respublikada:

- innovativ inkişafa dayanan proseslərin davamlılığı sahəsində qətiyyətlilik vardır;
- iqtisadi islahatlar milli iqtisadiyyatın perspektivlərinə istiqamətlənməklə, onun uzaq gələcək üzrə məhsuldarlığı təmin edilməkdədir;
- istehsal və qeyri-istehsal sahələri üzrə fasiləsizliyin və əlçatanlığın təmin edilməsinə güclü potensial formalaşmaqdadır;

Regionların sosial-iqtisadi inkişafı, bu sahədəki tədbirlərin sürətləndirilməsi və məhsuldarlığının artırılması yüksək məqsədyönlülük və perspektivliliklə davam etdirilməkdədir. Təhlillərimizə əsasən, qeyd edə bilərik ki, 2014-2018-ci illərdə istər informasiya və rabitə xidmətlərinin artımı (istərsə də, o cümlədən, mobil rabitə) 1,1 dəfə təşkil etməkdədir. Apardığımız hesablamalara istinad edərək qeyd edə bilərik ki, əldə edilən nailiyyətlər iqtisadiyyatın aparıcı sahələri kimi, sənaye və kənd təsərrüfatının həm inkişafının nəticəsini ifadə edir, həm də həmin sahələrin uzaq gələcək üzrə perspektivliyinə əlverişli zəminlər gətirir. Qeyd edək ki, 2014-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə sənaye məhsulunun həcmi 1,1 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi isə 1,4 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasının makroiqtisadi inkişafına nəzər saldıqda, görürük ki, burada sosiallaşma göstəriciləri üstünlük təşkil etməkdədir. Təhsil, elm, səhiyyə və digər sahələrdəki innovativ üstünlüklər, həmin proseslərin düzgün təşkili və idarə olunması, bunun isə, sosial dayanıqlığın daha da gücləndirilməsinə hərəkətverici təsiri, məhz qeyd etdiklərimizin elmi və məntiqi ifadəsini təşkil etməkdədir. Keçdiyimiz yola nəzərə salanda, görürük ki, müvafiq sahə üzrə hüqiqi və iqtisadi tənzimləmələrin həyata keçirilməsi də strateji əhəmiyyəti ilə seçilmişdir.

Hazırda muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 430 manatdır. Bu göstərici isə, 2014-cü ilin eyni dövrünün göstəricisi (388,5 manat) ilə müqayisədə 1,1 dəfə artmışdır. Həmçinin, bu, əhalinin alıcılıq qabiliyyətliliyinin yüksəldilməsinə, firəvanlığının diqqətdə saxlanılmasına, rifah göstəricilərinin artırılmasına və sosial-iqtisadi məmnunluğun təmin edilməsinə istiqamətlənmişdir. Təbii ki, sadalanan amillərin hər biri səmərəli tənzimləmələr fonunda bütün tərəfləri ilə yanaşı, həm bazar qanunlarının sərbəst və maneəsiz fəaliyyətinə stimul vermiş, həm də nəticə etibarı ilə özünü pərakəndə əmtəə dövriyyəsinin, həcminin, dinamik artımında göstərməkdədir.

### 2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında pərakəndə əmtəə dövriyyəsinin həcmi (min manat)

Tələb və təklifin tarazlığına, bazar münasibətlərinin təkmil institusional mexanizm kimi formalaşmasına və bununla da, iqtisadi tarazlığın təmin edilməsinə münbit zəmin olan yuxarıdakı göstəricilər muxtar respublikada sağlam rəqabət mühitinin inkişafında əlverişliliyi ilə seçilmişdir. Təhlillərimiz göstərir ki, 2014-2018-ci illərdə muxtar respublikada pərakəndə əmtəə dövriyyəsinin həcmi 1,6 dəfə artmışdır. Bu isə, ölkənin milli iqtisadi maraqlarının qorunmasında, əhalinin artan tələbatlarının qarşılanmasında, sosial dayanıqlığın gücləndirilməsində və digər məqsədlərin gerçəkləşməsində mühüm amildir.

Beləliklə, Naxçıvan Muxtar Respublikası 2018-ci ilin sonlarına doğru da güclü sosial-iqtisadi baza formalaşdıra bilmişdir. Digər tərəfdən, bu, sosialyönümlü iqtisadiyyat quruculuğunda həlledici mərhələlərin ardıcıllığını təmin etməkdədir. Qeyd edək ki, davamlı inkişaf üçün şaxələndirici perspektivlər vəd edən bu uğurlar muxtar respublikanın səmərəli regional siyasətdəki əhəmiyyətini daha da artıracaqdır.

***Cavadxan QASIMOV***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Fondun Müşahidə Şurasının iclası keçirilib



***Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədr müavini İlqar Hüseynov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib.***

**1.** Fondun 2019-cu ilin I rübündə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim edilmiş layihə təkliflərinin müzakirəsi və təsdiqi;

**2. Cari məsələlər.**

Fondun Müşahidə Şurasının sədr müavini İlqar Hüseynov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. Müzakirəyə çıxarılan məsələ barədə ətraflı məlumat verən V.Səfərli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq 32 qəzetin müsabiqəyə sənəd təqdim etdiklərini diqqətə çatdırıb. Həmin qəzetlərin layihələrinin 2018-ci ilin II yarısında da Fond tərəfindən maliyyələşdirildiyini deyən icraçı direktor müsabiqədə yeni iştirak edən KİV-lərin olmadığını bildirib. İcraçı direktor qeyd edib ki, müvafiq araşdırmalardan sonra sənəd təqdim etmiş 32 qəzetin layihə təkliflərinin müsabiqənin şərtlərinə cavab verdiyi müəyyən edilib.

Sonra qəzetlərdən daxil olmuş sənədlər Müşahidə Şurasının üzvlərinə paylanılıb və məsələ ətrafında müzakirələr başlayıb. Fondun Müşahidə Şurasının sədr müavini İlqar Hüseynov, üzvlərdən Ramiz Əskər, Bəhruz Quliyev, Rasim Həsənov, İntiqam Hümbətov və Ayaz Mirzəyev Fondun maliyyə yardımlarının qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər.

Müzakirələrin sonunda 32 qəzetin sənədlərinin müsabiqənin şərtlərinə cavab verdiyi nəzərə alınaraq, onlara 2019-cu ilin birinci rübü üzrə maliyyə yardımının ayrılması barədə qərar qəbul edilib (Maliyyə yardımı ayrılmış qəzetlərin siyahısı aşağıdakı cədvəldə təqdim olunur). Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə məlumat verib.

# "Azərbaycan cənab Prezidentimizin rəhbərliyi ilə sürətlə inkişaf edir"



***"Prezident İlham Əliyev hər zaman sosial məsələlərin həllini xüsusi olaraq diqqət mərkəzində saxlayır və onların həllinə nail olur. Əməkhaqqı və pensiyalar artırılıb, yeni sosial obyektlər istifadəyə verilib, insanları narahat edən problemlər aradan qaldırılıb. Bu gün hər bir vətəndaş dövlətin diqqət və qayğısını hiss edir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.***

Baş redaktorun sözlərinə görə, qaçqın və məcburi köçkünlərə diqqət və qayğı daim dövlət siyasətinin əsasında dayanıb: "Bu siyasi kursun təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyev mütəmadi olaraq qaçqın və məcburi köçkünlərlə görüşür, onları düşündürən məsələlərlə yaxından maraqlanır və həlli barədə müvafiq göstərişlər verir. Qanunvericilik bazası daha təkmilləşdirilir və əhalinin maddi rifah halının daha da yaxşılaşdırılmasına əlverişli zəmin yaradılır. Sosial müdafiəyə ehtiyacı olan hər kəs daim dövlətin qayğısını hiss edir və bundan sonra da edəcək. Bu baxımdan hesab edirəm ki, 2019-cu ildə qarşıda duran sosial məsələlər uğurla icra ediləcək.

15 ildir ki, Azərbaycan cənab Prezidentimizin rəhbərliyi ilə sürətlə inkişaf edir. Ölkəmiz demək olar ki, qarşıya qoyulan bütün hədəflərə çatıb. Təbii ki, ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin əsas istiqaməti məhz Dağlıq Qarabağ münaqişəsinin həllidir. Artıq uzun illərdir ki, bu istiqamətdə danışıqlar gedir, sülhün əldə olunması, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı mühüm işlər görülür. Lakin işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyi və digər subyektiv səbəblərdən hələ də ciddi irəliləyiş əldə edilməyib. Ancaq cənab Prezidentimiz bütün çıxışlarında qətiyyətlə bəyan edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına qayıdacaqlar".



# Azərbaycançılıq məfkurəmizdən yaranan amal

## 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

***Sovet dövründə Sovet hökumətinin tətbiq etdiyi sərt sərhəd rejimi SSRİ-dən xaricə axını məhdudlaşdırsa da, dissident hərəkatı əvvəlki illərlə müqayisədə daha kütləvi xarakter almışdır. Dissident hərəkatının, azad fikrin genişləndiyi dövrdə - 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başlaması respublikanın həyatında, ictimai şüurun, milli özünüdərkin təşəkkülündə yeni mərhələnin özülünü qoymuş oldu. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, respublikamızın nailiyyətləri təbliğ edilirdi.***

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək, ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Müstəqillik əldə etmiş Azərbaycanda bu ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü bütün azərbaycanlılar bu gün fəxr və qürurla qeyd edirlər.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Əlbəttə ki, dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində mühüm addımlar atıldı. Dünya azərbaycanlılarının siyasi və ideoloji birliyi əsas məsələ olaraq qarşıya qoyulduğundan Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın gücü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır".

Qurultayın tarixi əhəmiyyətinə nəzər salarkən, onu da qeyd etməliyik ki, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması ideyası da bu qurultaydan qaynaqlanıb. Ulu Öndər Heydər Əliyev çıxışında belə demişdir: "Biz dövlətimizin tərkibində Azərbaycan diasporu ilə iş üçün xüsusi bir orqanın yaradılması haqqında da qərar qəbul edəcəyik. Güman edirəm ki, belə mərkəzləşmiş bir orqan, yeni Azərbaycan icmaları ilə daim əlaqə saxlayan orqan həm icmaların və ümumiyyətlə, Azərbaycan diasporunun formalaşmasına, həm də bizim əlaqələrimizin daha da inkişafına xidmət edəcəkdir". Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd oldu. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan verdi. Bu tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, bu gün 450-dən çox diaspora təşkilatı dünya ölkələrində Azərbaycanın maraqlarına xidmət edir. Xarici ölkələrdə 92 diplomatik nümayəndəliyin, 60 səfirliyin olması Azərbaycan həqiqətləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmasında, Vətənin səsinin dünyanın istənilən qitəsindən eşidilməsində rolu danılmazdır.




Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan diasporu təşkilatlanaraq ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi-iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar. Azərbaycanlılar yaşadıqları, fəaliyyət göstərdikləri ölkələrdə, öz qüvvələrini səfərbər etməklə, dünyanın sivil nöqtələrində Azərbaycan naminə səslərini ucaldırlar. Onların sayı Birləşmiş Ştatlarda 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır. Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti İrandan miqrasiya etmiş soydaşlarımızdır. Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Digər Qərb ölkələrində məskunlaşmış azərbaycanlıların sayı, müvafiq olaraq, hər bir ölkədə 2-10 min nəfər arasındadır. Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsində məskunlaşmışlar. Sözsüz ki, bu qədər sayda həmvətənimizin xarici ölkələrdə məskunlaşması Azərbaycan həqiqətləri ilə bağlı reallıqların geniş bir şəkildə diqqətə çatdırılmasında rola malikdir.

Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana, doğma Vətənə gəldilər. Bu, birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu. Prezident İlham Əliyev Azərbaycan həqiqətləri haqqında dünya ictimaiyyətinə geniş informasiya verilməsinin vacibliyini diqqətə çəkərək, hazırda bizim 92 diplomatik nümayəndəliyimizin, 60-dan artıq səfirliyimizin olduğunu bildirib. "Ümumiyyətlə, Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır. Bizim heç bir ölkə ilə, - Ermənistandan başqa, - heç bir problemimiz yoxdur" - deyən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırıldığını vurğulayıb. Azərbaycan Prezidenti xarici ölkələrin dövlət, hökumət, qanunvericilik orqanlarında təmsilçiliyimizə də nəzər salıb: "Xarici media qurumları ilə bizim işimiz o qədər də yaxşı qurulmayıb. Burada da əsas rolu, əlbəttə ki, diaspor təşkilatları oynamalıdır. Çünki Azərbaycan dövləti bu işlərə müdaxilə edə bilməz. Biz heç bir xarici ölkənin daxili işinə qarışmırıq. Bu, qəbuledilməzdir. Ancaq hesab edirəm ki, Azərbaycan diaspor təşkilatları bu istiqamətdə öz işini lazımi səviyyədə qura bilməyiblər. Bizim xarici mediaya çıxışımız çox məhduddur".

Prezident İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni diasporunun, uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirib: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Bu gün dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış ola bilirlər".

Dünya ilə sərhədsiz münasibət quran Azərbaycan müxtəlif qitələrdə öz sözünü əməli çərçivəsində deyə bilir. Azərbaycandan kənarda iri məzmunlu layihələrin əsasında bəşəriyyətə humanizm dəyərlərini əxz etmək, dinindən, dilindən asılı olmayaraq, qeyri-millətləri dialoqa cəlb etmək kimi qlobal mahiyyət kəsb edən məsələlərin icrasında artıq özünü təsdiqləyən Heydər Əliyev Fondu müasir dövrümüzdə Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rola malikdir. Keçirilən tədbirlər və gerçəkləşən layihələr Qərb ilə Şərqin qovuşmasında körpü rolunu oynamaqla yanaşı, istənilən sahədəki mövcud amilləri - Azərbaycan məfhumunu dünyaya yaxınlaşdırıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyası çərçivəsində tədbirləri xüsusi qeyd etməliyik. "Dünya Xocalı barədə bilməlidir ki, bu cür qətllər və cinayətlər heç yerdə təkrar olunmasın" - deyən Leyla Əliyeva 2008-ci il mayın 8-də "Xocalıya Ədalət" beynəlxalq kampaniyasının keçirilməsi təşəbbüsünü irəli sürüb. Artıq neçə illərdir ki, Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın onlarla ölkəsində bu faciəyə həsr olunmuş tədbirlər keçirilir. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə, seminarlar, konfranslar təşkil olunur, kitablar nəşr edilir, filmlər çəkilir. Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn belə tədbirlərə müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də, xarici kütləvi informasiya vasitələrinin əməkdaşları dəvət olunurlar. Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib və doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir.

**ZÜMRÜD**

# Mehman Hüseynov - həm suçlu, həm güclü?

## *Yaxud Emin Hüseynov qardaşının "dərdini" Xocalı qurbanlarından necə üstün tutur*



***Məlum olduğu kimi, insanlara böhtan atması ittihamı ilə 2 illik həbs cəzası alan blogger Mehman Hüseynov cəza çəkdiyi müəssisədə növbəti dəfə tələb olunan daxili qanunları pozaraq, müəssisə əməkdaşına qarşı güc tətbiq edib və onu döyüb. Bununla bağlı M.Hüseynova 10 günlük cəza təyin olunub və o da "müddətsiz aclıq" elan edib.***

### Arlem Dezir dərhal "narahat" oldu...

Maraqlıdır ki, M.Hüseynovun qardaşı, hazırda Avropada məskunlaşan "Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu"nun direktoru Emin Hüseynov sözügedən məsələnin real təfərrüatlarına varmayaraq, öz köhnə ənənəsinə uyğun olaraq avropalı ağalarının qucağına pənah aparıb. M.Hüseynovun ona zəng edərək, cəzaçəkmə müəssisəsinin daxili qaydalarına əsasən, cə-



zalandırıldığını deyən E.Hüseynov bu məsələdən öz siyasi dividendinə xal qazandırmağa cəhd göstərib. Əbəs deyil ki, onun bu müraciətinə ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi Arlem Dezir dərhal reaksiya verib və "narahatlığını" ifadə edib.

### Nədənsə, Mehman Hüseynov bir neçə günlük evə buraxılarkən, Dezir bu humanist addımı alqışladığını deməmişdi,...

Halbuki M.Hüseynovun valideyni rəhmətə gedərkən, cəzaçəkmə müəssisəsi və müvafiq qurumlar, onu bir neçə günlük azadlığa buraxmışdı. Maraqlıdır ki, bu kimi humanist addım atılarkən, A.Dezir həmin məsələni alqışladığını bəyan etməmişdi. Ancaq bir kiçik insident özü də M.Hüseynov tərəfindən yaradılan insident baş verən kimi, dərhal "narahat" olduğunu bildirib. Məhz bu kimi amillər kiçik görünsə də, əslində, bir daha bəzi Qərb qurumlarının tərkibindəki fərdlərin bənzər "narahatlıq" ifadələri istər-istəməz onların hansı məqsədlərə xidmət etdiklərini açıq şəkildə göstərməkdədir.

### Mehman Hüseynov azadlığa çıxan kimi, Avropada "siyasi sığınacaq" alıb, anti-Azərbaycan fəaliyyətinə start verəcək

Beləliklə, M.Hüseynovun qanunları pozması ilə yanaşı, özünü "əzabkeş" kimi göstərməsi, eyni zamanda, Avropadakı qardaşı E.Hüseynovun dərhal A.Dezir kimi "demokratiya mələkləri"nin qucağına atılması, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, onlara belə halların baş verməsi sərf edir.



Yəni gələcəkdə M.Hüseynov da qardaşı E.Hüseynov kimi Avropaya gedib, orada "siyasi sığınacaq" alaraq, Azərbaycan dövlətinin və xalqının iradəsinə qarşı antimilli fəaliyyət göstərəcək. Bütün bu kimi faktlar isə, artıq dəfələrlə sübuta yetirilib və danılmaz arqumentlərlə əsaslandırıla bilər.

***Rövşən RƏSULOV***

***P.S.*** *Yeri gəlmişkən, bu ilin 26 fevral tarixində ATƏT Parlament Assambleyasının 17-ci qış sessiyasında iştirak edən millət vəkillərimiz Emin Hüseynovdan və Leyla Yunusdan Xocalı soyqırımı qurbanları barədə məsələyə nə üçün toxunmadıqlarını soruşanda, onlar bu sualı cavablandırmaq yerinə, gülərək, həmin sualı verənə kinayəli tərzdə əl çalmışdılar. Təkcə, bu faktın özü nəyin necə olduğunu, ümumiyyətlə, həmin "insanların" hansı məqsədlərə işlədiklərini sübuta yetirmiş olur. Hər halda, bu gün bütün dünya Xocalı soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul edirsə, E.Hüseynov isə cinayətkar qardaşının "dərdini" Xocalı soyqırımından üstün tutursa, demək ki...*



# Özgə yalağı ilə dolananlar

## *Və ya haram tikədən pay umanlar*

***Bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan "sapı özümüzdən olan baltalar" istər ölkə daxilində, istərsə də ölkəmizdən kənarda, "siyasi mühacir" adı ilə yaşayan ünsürlər hər vasitədən istifadə etməklə, Azərbaycanın əleyhinə təbliğat aparırlar. Xaricdə özlərinə sığınacaq tapan bu cür satqınlar heç bir məsuliyyət hiss etmədən sosial şəbəkələrdə təhqir və böhtan yazır, Vətən və dövlətçilik amillərinə qarşı formalaşmış çirkablı yollara əl atırlar.***



Belələrini əxlaqsız, mənəviyyatsız adlandıranda da, bir az da həyasızlaşır, iyrənc duruma düşür, ermənipərəst dairələrlə işbirliyi aparan Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rəfail Piriyev, Həbib Müntəzir, Vidadi İsgəndərli və digər bu kimi əxlaqsızlar dövlətimiz və xalqımız haqqında iyrənc şər-böhtan və qarayaxma kampaniyaları aparmaqdan usanmayaraq, xarici qüvvələrin maşası ilə idarə olunurlar. Bir məqamı da vurğulayaq ki, Çexiyanın paytaxtı Praqada yaşayan Zamiq Məmmədli "Facebook" səhifəsində son vaxtlar Orduxan Bəbirov, M.Mirzəlini qrant "alverçisi" adlandırır. Gülməli irad. Kor-kora kor deməsə, bağrı çatlar. Onun ardınca, Z.Məmmədli yazır ki, "Bu "diktatoru tanıdaq" kimi axmaq aksiyanın layihə müəllifi Leyla Yunusdur. Bu, aydın məsələdir. Bu yaxınlarda Leyla Yunus "siyasi məhbuslara yardım" layihəsi üzrə NED-dən (National Endowment for Democracy) 94000 avro qrant alıb, bir soruşun, hansısa siyasi məhbus ailəsinə ordan 10 avro veribmi?!. Çalışın, bu fitvaya getməyin, siz ortalığa düşürsünüz, bu dəllallar pul qazanırlar! Bu aksiyaya qoşulanlardan isə soruşuram: L.Yunusdan 94 min avronun hesabını soruşmağa cəsarətiniz çatırmı? Amma 5000 km uzaqdan camaata "tırka" verməyi gözəl bacarırsınız..."

Görün qrant bu satqın və əxlaqsızları necə üz-üzə qoyub. Bütün bunlar, əslində, Avropada oturub Azərbaycana qarşı kampaniya aparanların hansı yuvanın quşu olduqlarını tam aydınlığı ilə təsəvvür etməyə imkan verir.

### İdarə olunan erməni qulbeçələri

Danimarkada və Fransada, Belçikada və Almaniyada oturub, "ah, baxın bura, sonra Azərbaycanla müqayisə edin" deyənlərsə, lütfən, bir anlıq düşünsünlər: həmin ölkələrin rifahı dünən formalaşıb, üstünlük və azadlıqları indi, bu gün olub?! Söz azadlığı, demokratiya, insan haqları yaxşı məsələlərdir. Amma liviyalı qaçqın kimi istədiyini danışan adam, Hələb şəhərində başına bombalar yağan və demokratik azadlığı yalnız ölüm yolunun seçilməsindən ibarət olan suriyalı, Almaniyanın küçələrində alüminium qablar yığıb, çörək pulu qazanmağa çalışan əfqanın insan kimi haqları onlara nə verəcək?

Fəaliyyətləri söyüşlər, təhqirlər, dövlət çevrilişinə çağırışlar etməklə məşğul olan "siyasi mühacirlər", siz nə qədər qürrələnsəniz də, artıq o yolları toz basıb. Heç bir şeyə nail ola bilməyəcəksiniz. Yalanı "həqiqət" kimi təqdim etməyə cəhd göstərsəniz də, özünüz aldanırsınızsa, bizləri də aldanmış saymayın. Artıq heç kimə sirr deyil ki, "siyasi mühacir" adı altında olan ünsürlər ermənilərlə əməkdaşlıq etməklə, erməni lobbisinin göstərişlərinə uyğun idarə olunurlar və sözsüz ki, Vətən, millət, dövlət və xalq anlayışı belə şəxslərə yaddır. Bir də bu, təəccüblü deyil. Çünki xəyanətkarın ağı-qarası olmur.

***Rəfiqə HÜSEYNOVA***

# Bakı-Gəncə-Bakı sürət qatarına start verilir

"Azərbaycan Dəmir Yolları" QSC dekabrın 30-dan etibarən Bakı-Gəncə-Bakı istiqamətində yeni sürətli sərnişin qatarının hərəkətinə start verir. "Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Bakı və Gəncə şəhərləri, eləcə də həmin xətt üzrə yerləşən rayonlarla nəqliyyat əlaqələrinin genişləndirilməsinə, həmçinin əhalinin sosial sifarişinin ödənməsinə hesablanmış bu əməli iş müstəsna əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Bakı-Gəncə-Bakı sürət qatarı hər ayın cüt günlərində Bakıdan, tək günlərində isə Gəncə şəhərindən saat 09:00-da yola düşəcək. Qatarın yolda olma müddəti 4 saat 28 dəqiqə təşkil edir. Sərnişinlərin nəzərinə çatdırılır ki, qatarın Biləcəri, Yevlax və Goran stansiyalarında dayanacaqları mövcuddur.

# "Azərenerji": Elektrik enerjisi istehsalı artıb, yanacaq sərfiyyatına qənaət edilib

"Azərenerji" ASC-nin reabilitasiya üzrə Tədbirlər Planı öz bəhrəsini verir. ASC-dən AZƏRTAC-a bildirilib ki, iyul ayında elektrik enerji sistemində yaranan böhran səbəbindən Prezident İlham Əliyev tərəfindən yaradılan Dövlət Komissiyasının yekun rəyindən sonra həyata keçirilən islahatlar və "Ölkə enerji sistemində yaranmış kritik vəziyyətin aradan qaldırılması məqsədilə hazırlanmış reabilitasiya üzrə Tədbirlər Planı"na uyğun olaraq görülən işlər müsbət nəticəsini verməkdədir. Belə ki, görülən işlərin nəticəsi olaraq ötən ilin müvafiq dövrü ilə müqayisədə orta hesabla gündəlik 5,5 milyon kilovat-saat çox elektrik enerjisi istehsal edilir. Ən əsası isə 5,5 milyon kilovat-saat artım olmasına baxmayaraq, keçən ilin eyni dövrünə nisbətən istehsal prosesində şərti yanacaq sərfiyyatı hər kilovat-saata görə 1-2 qramadək azalıb. Beləliklə, daha az yanacaq sərf edilməklə həm yanacağa qənaət olunub, həm də daha çox elektrik enerjisi istehsal olunub.

***Bəşəri rəmzə çevrilmiş bir anlayış kimi sülhə yüzlərlə tərif vermək, onu yüzlərlə sözlə ifadə etmək olar. Sülhü əsrlər boyunca bəşəriyyətin ən böyük ehtiyacı da adlandırmaq olar. Bu gün üçün isə sülh yaşı milyon illərlə ölçülən dünyada milyonlarla insanın həqiqət nəğməsidir. Necə ki, gündəlik yaşamaq üçün çörəyə, suya və nəfəsə ehtiyac duyuruq, eyni şəkildə bəşəriyyətin sülhə, sevgiyə və tolerantlığa ehtiyacı vardır. Mahiyyətcə dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial, iqtisadi və mədəni inkişaf, insanların və insanlığın birlik və bərabərlik şəraitində yaşamasını özündə ehtiva edən sülh bəşəri məfhumdur. Azadlıq, bərabərlik və ədalətlə yanaşı, sülh də hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdəndir. Sabit şəraitdə yaşamalı olan insanlar, min təəssüflər ki, bəzən haqsızlığın, amansızlığın, terrorun və müharibələrin qurbanlarına çevrilirlər. Bütün bunların qarşısının alınmasında sülhün rolu danılmazdır.***

Bu mənada, əslində, sülhün günü olmur, çünki o, insanlığa hər gün lazımdır. 1981-ci il noyabrın 30-da Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 36-cı sessiyasında ona üzv dövlətlərin, bütün bəşəriyyətin cəhdlərini mərkəzləşdirərək sülh idealarını inkişaf etdirməyə imkan verən və onların hər vəchlə sülhə sadiqliyini sübut edən xüsusi bir vaxt təyin etmiş və beləliklə, sentyabrın 21-i Beynəlxalq Sülh Günü elan olunmuşdur.

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hu-malar, çirkli pulların yuyulmasından əldə edilən mənfəətlərin müxtəlif silahların alınmasına sərf edilməsi, ayrı-ayrı terrorçu təşkilatların, əsasən, bu yolla silahlandırılması və s. hələ də qlobal təhlükələrin sovuşmaması haqqında şəhadət verir.

Məlumdur ki, bəşər tarixi boyu bir dövlətin və xalqın təhlükəsizliyinin digər dövlətin və xalqın mənafelərinin zərəri hesabına təmin olunması praktikası, ardı-arası kəsilməyən, silahlı münaqişələr, toqquşmalar və müharibələr doğurmuşdur. Lakin müharibələr və N.Tusi qeyd edirdi ki, "müharibə son tədbir olmalıdır" hökmdarlar, məhz danışıqlar yolu ilə sülhə nail olmalıdırlar".

Orta əsrlərin və İntibah dövrünün mütəfəkkirləri və islahatçıları da müharibə və sülh məsələlərinin həllində ciddi mövqe nümayiş etdirmişlər. Hələ XV əsrdə çex kralı İrji Podeb-rad Avropa hökmdarlarının ittifaqının layihəsi təklifi ilə çıxış etmişdir. Onun niyyətinə görə, bu ittifaq beynəlxalq siyasətdə Vatikanın intriqalarını məhdudlaşdırmalı və Avropada sülhü təmin etməli idi.







*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Sülh siyasəti və insan hüquqları

ququ ilə yanaşı, bütün hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın, mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Ümumiyyətlə, sülh və sabitlik inkişafın təməlidir. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq, özünəməxsus şəkildə inkişaf etdirilir.

Beynəlxalq gərginliyin zəifləməsi, planetdə möhkəm sülhə nail olunması, insanlığın təhlükəsizliyinin təmin olunması və Yer üzündə əmin-amanlığın yaradılması həmişə qlobal problemlərdən biri olmuşdur və indi də olmaqda davam edır. Bəşəriyyətə yaşayıb-yaratmaq, qurmaq və yeni-yeni kəşflər, ixtiralar üçün, hər şeydən əvvəl, dinclik, firavan həyat və layiqli həyat tərzi lazımdır.

Leyla İsgəndərova yazır: "Təəssüf doğuran haldır ki, bəşəriyyət XXI əsrə də munaqişələrsiz və müharibələrsiz daxil ola bilmədi. XX yüzilliklə müqayisədə, XXI yuzillik insanlığın yaddaşına terror aktlarının çoxluğu və "müntəzəm" xarakter alması ilə həkk oldu. Regionlararası silahlı toqquşqanlı qırğınlar fonunda sivilizasiyanın dinc inkişafı yollarının axtarışı prosesi də öz gedişindən qalmamışdır. Həmin proses bu gün də davam etdirilir. Zira, dünyanın bütün dövlətləri təhlükəsizlik məsələlərinə heç də eyni mövqelərdən yanaşmırlar. Bəzi ölkələrin mövqeyi, məsələnin ciddiliyinə laqeyd yanaşması beynəlxalq gərginliyi artırır və bəşəriyyətin dincliyini təhlükə altına alır.

Göstərmək və xatırlatmaq zəruridir ki, hələ antik dövrdə hərb və sülh məsələlərinin, dövlət hakimiyyətinin silahlı müdaxilə və zorakılıqları məhdudlaşdırmaq imkanlarının araşdırılmasına həm fəlsəfədə, həm də siyasi-hüquqi fikirdə, o cümlədən, Platonun "Dövlət", Aristotelin isə "Afina politiyası" əsərində geniş yer verilmişdir.

IX əsrin dahi ərəbdilli müsəlman Şərqi mütəfəkkiri Əl-Fərabi müharibələri cahil dövlətlərin xarici siyasətinin baş xətti hesab etmişdir. Onun ideyasına görə, xeyirxah şəhər-dövlətin başlıca vəzifəsi öz əhalisini və ölkəsini xarici düşmənlərdən qorumaqdan, dövlətlər arasında sülh yaratmaqdan ibarət olmalıdır. XIII əsrin görkəmli Azərbaycan mütəfəkkiri

Müharibə və sülh problemləri ilə bağlı tədqiqatlarında təbii hüquq və ictimai müqavilə ideyasına söykənən XVII-XIX əsrlərin maarifçilərinin, inqilabi burjuaziya ideoloqlarının əsərlərində də ümumi sülh konsepsiyası əsaslı yer tutmuş və inkişaf etdirilmişdir.

B.M.Klimenko yazır: "Beynəlxalq təhlükəsizlik hüququ haqqında geniş və məhdud mənada danışmaq mümkündür. Beynəlxalq təhlükəsizlik hüququ geniş mənada - müxtəlif sahələrdə (hərbi, siyasi, iqtisadi, maliyyə, humanitar, ekoloji və s.) təhlükəsizliyin təmini və beynəlxalq sülhün qorunmasına yönəlmiş beynəlxalq hüquqi prinsip və normaların məcmusudur.

Beynəlxalq təhlükəsizlik hüququ haqqında məhdud mənada danışarkən, hərbi və siyasi sahələrdə təhlükəsizliyi və beynəlxalq sülhü qorumaqla, bilavasitə əlaqəli olan prinsip və normaları fərqləndirmək zəruridir.

Həmin hüquq sahəsinin əsas prinsiplərinə güc tətbiq edilməməsi və zorla tətbiq etməmək, daxili işlərə qarışmamaq, beynəlxalq mübahisələrin sülh yolu ilə həlli, tərksilah, təcavüzə görə dövlətin məsuliyyəti, təhlükəsizliyin bölünməməsi və bərabər təhlükəsizlik prinsipləri aiddir".

Fransız abbatı Sen-Pyerin 1713-cü ildə işləyib-hazırladığı "Avropada əbədi sülhün təyin edilməsi layihəsində Avropa dövlətlərilə "böyük ittifaq bağlamaq", qarşılıqlı ərazi iddialarından imtina edərək, bütün mübahisəli məsələlərə baxılmaq üçün münsiflər məhkəməsinə vermək təklif edilirdi. Sen-Pyerin ideyasını yüksək qiymətləndirən J.J.Russo göstərirdi ki, yalnız bircə günlüyə Avropa Respublikası yaradın. Bu, kifayət edər ki, o, əbədi yaşasın. O zaman hər kəs təcrübə əsasında ümumi xoşbəxtlikdə öz verdiyi faydasını görə bilər.

L.İsgəndərovanın qeyd etdiyi kimi, müharibə və sülh problemlərinin həllində 1899-cu ildə keçirilmiş Birinci Haaqa Sülh Konfransı, xüsusilə, böyük rol oynamışdır. Konfransın proqramının birinci bəndinə "dinc dövrdə təyin edilmiş müddətlərdə quru və dəniz qüvvələrinin şəxsi heyətinin mövcud ölçülərini artırmamağı qanuniləşdirən sazişin bağlanması" nəzərdə tutulurdu.

İki dünya müharibəsi arasındakı dövrdə təhlükəsizliyin müharibənin qadağan olunması yolu ilə, eləcə də, düzgün silahlanmanın məhdudlaşdırılması vasitəsilə təmin edilməsinin müxtəlif layihələri tərtib olunmuşdur. Nüvə silahının meydana gəlməsi və bununla birlikdə, Yer kürəsində həyatın məhv edilməsi təhlükəsi müharibə və sülh məsələlərinin kompleks halda tənqidi cəhətdən yenidən nəzərdən keçirilməsini zəruri etdi. Geniş əhatəli beynəlxalq təhlükəsizlik ideyası bir növ bu zərurətə cavab idi.

Tədricən daha geniş dərəcədə, aydın olurdu ki, bəşəriyyət yeni təhlükəsizliyin yeni meyarları qarşısında dayanmışdır. Yəni milli təhlükəsizliyi artıq yalnız hərbi-texniki vasitələrlə güclü müdafiə sistemi yaratmaqla təmin etmək qeyri-mümkündür.

Həmin şəraitdə Roma klubunun irəli sürdüyü Qlobal İnkişaf Konsepsiyası, habelə, tanınmış siyasi xadimlər və dövlət xadimləri Palme, Brandt, Brundtland tərəfində yaradılmış komissiyaların təklifləri təhlükəsizliyin yeni konsepsiyasının formalaşmasında əhəmiyyətli rol oynamışdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs
Son səhifə 29 dekabr

## Yuxusuzluqdan əziyyət çəkənlər üçün heyva yarpağı əsl dərmandır



Hər fəsildə yetişən meyvələrlə qidalanmaq immun sistemin gücləndirilməsində əsas rol oynayır. Orqanizmi qışa hazırlamaq üçün onu payızda lazımi vitamin və vitaminlərlə təmin etmək lazımdır. Azərbaycan Milli Elmlər Akademiyasının Nəbatat Bağının aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Asif Mehralıyevin AZƏRTAC-a verdiyi məlumata görə, payızda yetişən meyvələrin hərəsi özündə bir qrup vitamin cəmləşdirir: "C qrupu vitaminləri ilə zəngin olan portağal soyuqdəymə, qrip və zökəmin dərmanıdır. Portağal özündə B vitamini, kalsium, maqnezium ehtiva edir, ürək xəstəliyi və iflicdən qoruyur, mədə xərçənginin qarşısını alır, dərini təravətləndirir. Tərkibindəki minerallar dəridəki qırışların yaranmasının qarşısını alır, qaraciyərin düzgün işləməsini tənzimləyir, həzmi asanlaşdırır. Hər səhər bir stəkan portağal şirəsi içmək gün ərzində gümrahlığı təmin edir.

Heyva əsasən ürək, qaraciyər, boğaz, mədə, göz və bağırsaq xəstəliklərində faydalıdır. Tərkibi protein, şəkər, A, B2, C vitamini, dəmir kimi minerallarla zəngindir. Uşaqların sağlam böyüməsi və inkişafını tənzimləyir, dərini və dırnaqları parlaqlaşdırır. Kərə yağında bişirilən heyva öskürəyin qarşısını alaraq tənəffüs yollarını açır. Onun çiçəyini qaynadıb içmək ürəyi cavanlaşdırır və başağrısının qarşısını alır. Yuxusuzluqdan əziyyət çəkənlər üçün heyva yarpağı əsl dərmandır. Banan qan dövranını tənzimləyir, ürəyə və əzələlərə xeyirlidir, yüksək təzyiqin qarşısını almağa müsbət təsir göstərir, yorğunluğu aradan qaldırır.

Tərkibi A, B1, B2 və C vitaminləri ilə yanaşı kalium və maqneziumla da zəngin olan üzüm əsl şəfa mənbəyidir. Beyini enerji ilə təmin edən üzüm ağciyər xəstəliyi, əsəb pozğunluğu, yaddaş zəifliyi, qan azlığı, nəfəs darlığı və qaraciyər zəifliyinə müsbət təsir göstərir".

Bioloq-alim bildirib ki, alma ürək-damar xəstəliklərinin yaranma təhlükəsini 50 faiz azaldır: " Bu meyvə həzm sisteminin pozğunluğunu aradan qaldırır, qan şəkərini nəzarətdə saxlayır.

Armudun tərkibindəki vitaminlər böyrəkdəki daş və duzların təmizlənməsinə kömək edir, təzyiqi salır, qanı tənzimləyir. Revmatizmin müalicəsində faydalı təsir göstərir. Onu yeməkdən əvvəl qəbul etmək məsləhətdir. Çox qüvvətli antioksidant olan zoğal qan azlığı və mədə xəstəliyinin dərmanıdır. Yarpaqlarından dəmlənmiş çay bədəni möhkəmləndirən vasitə kimi tövsiyə olunur. Qurudulmuş çəyirdəyini üyüdərək açıq yaranın üstünə səpilməsi tez sağalmaya səbəb olur. Təzə dərilmiş zoğal meyvəsindən hazırlanan sirop angina və sınqa xəstəliklərində yaxşı səmərə verir.

Xurma beynin məhsuldarlığını 20 faizə qədər artırır. Onun müntəzəm istifadəsi immun sistemini gücləndirir. Ürək xəstəlikləri zamanı müntəzəm olaraq xurma yemək ürəyin fəaliyyətinin bərpası üçün ən yaxşı vasitələrdən biridir. Xurma gözlərə, o cümlədən görmə qabiliyyətinin yaxşılaşdırılmasına da müsbət təsir göstərir.

Əncir ödqovucudur, qaraciyəri möhkəmləndirir. Süd içə bilməyənlərin əncir yeməsi məsləhətdir, çünki o tərkibindəki yüksək miqdarda kalsium sayəsində sümük və dişləri möhkəmləndirir. Ənciri astma və öskürək zamanı da yemək məsləhət görülür. Süddə bişirilmiş əncirin nəfəs yolları xəstəliklərində böyük faydası var. Bir dəfəyə təzə əncirin ancaq 300, qurusunun isə 120 qrama qədərini yemək olar. Müalicə məqsədilə yalnız əncirin meyvəsindən deyil, həm də yarpaqlarından istifadə edirlər. Yarpaqlarının cövhəri öskürək, bronxial astma və böyrək xəstəlikləri zamanı qəbul edilir".

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə II kurs magistri Əliyeva Həmidə Tahir qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

## Messidən Ronaldoya cavab: "Mənə dəyişiklik lazım deyil"



"Mənə dəyişiklik lazım deyil. Dünyanın ən yaxşı klubundayam. İldən-ilə qarşımda duran hədəflər artır". Qol.az xəbər verir ki, bu sözləri "Barselona"nın futbolçusu Lionel Messi "Marca"ya açıqlamasında deyib. Argentinalı hücumçu "Yuventus"un üzvü Kriştiano Ronaldonun bu yaxınlarda verdiyi açıqlamada onu İtaliyada birlikdə oynamağa dəvət etməsinə münasibət bildirib. O, İspaniyada özünü rahat hiss etdiyini və klubunu dəyişməyə heç bir səbəbin olmadığını qeyd edib: "Komandamı və ya çempionatı dəyişməyə ehtiyac yoxdur. Mən öz evimdəyəm. Ona görə də nəyisə dəyişməyə səbəb görmürəm".

Xatırladaq ki, mövsümün əvvəlində "Real"dan "Yuventus"a keçən Ronaldo Messi haqqında açıqlamasında belə demişdi: "Messi hələ də İspaniyada oynayır. Amma mən İngiltərə, İspaniya, Portuqaliya və İtaliyada oynamışam. Bəlkə, mənə daha çox ehtiyacı var. Həyat mənim üçün mübarizə meydanıdır və mən bunu çox sevirəm. Messinin bir gün İtaliyada oynamasını istəyərəm".

## Millidə baş məşqçi dəyişikliyi



AFFA-nın Məşqçilər Komitəsi və baş katibliyin birgə müzakirələri, Məşqçilər Komitəsinin müvafiq təqdimatına əsasən, 19 yaşadək futbolçulardan ibarət komandalar arasında 2019-cu ilin oktyabr ayında keçiriləcək Avropa çempionatının seçmə mərhələsində iştirak edəcək Azərbaycan U-19 milli komandasının hazırlıq prosesinə start verilməsi məqsədilə baş məşqçi vəzifəsi Samir Əliyevə həvalə olunub. Bu haqda AFFA-nın saytı məlumat yayıb. Qurumun mətbuat xidmətinin rəhbəri Firuz Abdulla Qol.az-a bildirib ki, milli 2019-cu ilin martında elit-raunda isə hazırkı baş məşqçisi Vüqar Məmmədin rəhbərliyi altında oynayacaq. Bundan sonra isə komandaya S.Əliyev rəhbərlik edəcək.

## "Liverpul"dan Premyer Liqa tarixində yeni rekord



Futbol üzrə İngiltərə Premyer Liqasının XIX turunda "Nyukasl" üzərində böyükhesablı qələbə qazanan (4:0) "Liverpul" məğlubiyyətsiz oyunlar seriyasını davam etdirib. Matç.az saytının məlumatına görə, "mersisaydlılar" bununla ilk dövrəni yenilgisiz başa vurub.

Yurgen Kloppun yetirmələri Premyer Liqa tarixində 19 turdan sonra məğlubiyyət üzü görməyən 4-cü klub olub. Bundan əvvəl "Arsenal" (2003-04), "Mançester Yunayted" (2010-11) və "Mançester Siti" (2017-18) bunu reallaşdırmağı bacarmışdı. Hər üç klub həmin mövsümün sonunda çempionluğu bayram etmişdi. Qeyd edək ki, "Liverpul" hazırda ən yaxın izləyicisi "Tottenhem"i 6 xal qabaqlayır.

## "Vest Hem" Samir Nəsri ilə razılaşıb



İngiltərənin "Vest Hem" klubu fransız futbolçu Samir Nəsri ilə müqavilə bağlamağa razılaşıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, yarımmüdafiəçiyə həftəsinə 88 min avro maaşla qısamüddətli müqavilə təqdim olunub.

Fransız futbolçu karyerasını "Olimpik Marsel"də başlayıb. Yarımmüdafiəçi "Arsenal", "Mançester Siti", "Sevilya" və "Antalyaspor" klublarının heyətində forma geyinib. Nəsri Fransa milli komandasının heyətində 42 oyunda 7 qol və 4 məhsuldar ötürmə ilə yadda qalıb. Qeyd edək ki, oyunçu 2018-ci il fevralın 25-də dopinqə görə yarım il futboldan kənarlaşdırılıb.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500